HEYDƏR ƏLİYEV ADINA
MÜASİR TƏHSİL KOMPLEKSİ

MTK

2001




# MTK Xəbər bülleteni, II cild, №3
# Gələcək burada başlayır

## Bülletenin əsas xəbərləri 25.12.2024

1. Məktəb direktorunun mesajı, Nelson Urreqo, Məktəb direktoru
2. Məktəbəqədər bölmə, Ədilə Əliyeva, Məktəbəqədər bölmənin rəhbəri
3. İbtidai təhsil bölməsi, Zülfiyyə Rəsulova, İbtidai məktəb bölməsinin rəhbəri
4. Orta məktəb bölməsi, Atabəy Quliyev, Orta məktəb bölməsinin rəhbəri
5. MTK-da Anti-bullinq həftəsi, Zülfiyyə Rəsulova, İbtidai məktəb bölməsinin rəhbəri
6. Xaricdə təhsil almaq üçün universitet seçimi necə edilməlidir? Aysel Əliyeva, Ali təhsil üzrə məsləhətçi

7. UNESCO ASPnet və qlobal təhsilə töhfəmiz, Aynur Məmmədova, UNESCO ASPnet koordinatoru
8. “Yaşıl dünya naminə həmrəy olaq” şüarı altında sərgi, Tünzalə Məmmədova (coğrafiya müəllimi) və Jalə İsmayılova (fizika müəllimi)
9. COP29 -un Yaşıl Zonası Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin şagirdlərinin ziyarətçi marağına səbəb oldu, Tünzala Məmmədova, coğrafiya müəllimi
10. Ulu Öndər Heydər Əliyev məktəb illərində, Leyla Hüseynova, tarix və coğrafiya üzrə koordinator
11. Kolumbiya ədəbiyyatı və Azərbaycan gəncləri: Birinci Kolumbiya ədəbi forumu, Fidan Bəylərova, Məktəb direktorunun şəxsi köməkçisi
12. Profil: Tərbiyə işləri üzrə koordinatorumuz Ramiro Londonyo ilə tanış olun. Müsahibəni götürdü: Nelson Urreqo
13. 🎨 Yaradıcı beyinlərə çağırış! 🎨 Təbiət elmləri şöbəsi üçün divar dizaynı! Simon Bleyk, təbiət elmləri üzrə koordinator
14. 8i1 və 8i2 şagirdlərinin Balaxanı Sənaye Parkına ekskursiyası, İlham Abdullayev, 8i1 sinif şagirdi
15. Təlimə nəfəs vermək: tənəffüs sisteminə aid plakatlar, Suri Hüseynova, 7i2 sinif şagirdi
16. COP29 könüllülərin baxışı ilə, Akif Məmmədyarov 9r1 sinif şagirdi
17. İmtahan stresi: Necə tanımaq və idarə etmək olar? Zəhraxanım Qasımova, 12i sinif şagirdi
18. Kitab oxumaq, Aylin Mirzəxan, 9i1 sinif şagirdi
19. “Canavarlar və günah hissi barədə” (hekayə), Miras Bekzatılı, 10i sinif şagirdi

## Məktəb direktorunun mesajı, cənab Nelson Urreqo

Əziz valideynlər və MTK icması,

Qış tətili yaxınlaşmaqdadır, biz isə şagirdlərimizə birinci yarımil boyu akademik fəaliyyətlərində göstərdikləri böyük zəhmətə görə təşəkkürümüzü bildirmək istəyirik. Unutmayaq ki, uşaqlarımızın uğuru valideynlər, müəllimlər və şagirdlərin birgə çalışmasının nəticəsidir. Məktəbimiz bu birgə çalışmanı daim gücləndirir və məsləhətçi komandamızla bir sıra faydalı mövzularda valideynlər üçün orientasiya sessiyaları və seminarlar təşkil edir. Bu faydalı

strategiyanı məktəbin aparıcı liderləri və mütəxəssisləri ilə birgə davam etdirməyi planlaşdırırıq və həmçinin, şagirdlərimizin ailələri ilə uşaqların qorunması, karyera planlaması, sağlamlıq və təhlükəsizlik, öyrənmə vərdişləri, cihazlardan düzgün istifadə və ekrandan istifadə müddətinə nəzarət kimi mövzuları da müzakirə edəcəyik.

Biz əminik ki, səmimi və etibarlı ünsiyyət məktəbimizin dəyərlərini qorumaq, məktəbin missiya və vizyonunu inkişaf etdirmək üçün vacibdir. Sinif rəhbərləri, fənn müəllimləri, bölmə rəhbərləri, məktəb məsləhətçiləri, məktəb direktoru, icraçı direktor və inzibati heyətimiz hər zaman rəylərinizə və faydalı təkliflərinizə açıqdır. Sizi narahat edən məsələləri məktəbin rəsmi elektron poçtu üzərindən bizə bildirə bilərsiniz: infomtk@mtk.edu.az və ya birbaşa müvafiq bölmə rəhbərinə: Məktəbəqədər bölmə: adila.aliyeva@mtk.edu.az İbtidai təhsil bölməsi: zulfiya.rasulova@mtk.edu.az Orta məktəb bölməsi: atabay.guliyev@mtk.edu.az

İnzibati heyətimiz narahatlıqlarınıza və ya təkliflərinizə ən qısa zamanda cavab verəcəkdir.

Digər tərəfdən Beynəlxalq Məktəblər Şurasının (BMŞ) nümayəndələri məktəbimizi ziyarət edərək məqsəd və istiqamətlərimizə, yüksək keyfiyyətli təhsilə verdiyimiz önəmi, qlobal vətəndaşlıq anlayışının aşılanmasını, rifahın dəstəklənməsini, uşaqların müdafiəsi və qorunması siyasətlərini, həmçinin onların davranış kodeksinə və “Uşaq hüquqları haqqında” BMT Konvensiyasına (1990) uyğunluğumuzu qiymətləndirəcəklər. İnanırıq ki, bütün bunların nəticəsində MTK BMŞ-in bir üzvü olacaq və bu da icmamızın inkişafının mühüm göstəricisi kimi çıxış edəcəkdir.

Məktəbimizin rəhbərləri və müəllimləri yalnız ən yüksək beynəlxalq təhsil standartlarına cavab vermək üçün deyil, həmçinin Azərbaycanın Mükəmməllik Mərkəzi olan MTK-da uşaqlarımıza ən yaxşı şəkildə təhsil vermək öhdəliyimizi

yerinə yetirmək məqsədilə müvafiq siyasətləri həyata keçirmək, məktəbin strukturunu və sistemlərini yenidən formalaşdırmaq üçün çox səy göstəriblər.

Direktorlar Şurası, baş icraçı direktorumuz cənab Tural Abbasov və icraçı rəhbərlik komandası adından sizə bu qış tətilində xoş istirahətlər arzulayırıq.

Hörmətlə,

Dr. Nelson Urreqo

Məktəb Direktoru

## Məktəbəqədər bölmə                                  Ədilə Əliyeva, Məktəbəqədər bölmə üzrə rəhbər

**1. Payız Festivalı Bayramı**

2 noyabr tarixində məktəbəqədər bölmədə keçirilən əyləncəli “**Payız festivalı”** uşaqlara unudulmaz anlar yaşatdı. Uşaqlar bu tədbirdə payız mövsümünün gözəlliklərindən ilham alaraq mahnı oxuyur, rəqs edir və müxtəlif əl işləri ilə öz bacarıqlarını nümayiş etdirirdilər. Məktəbəqədər bölmə payızın canlı rəngləri ilə bəzədilmişdi, uşaqlar müəllimləri ilə birlikdə bu gözəl günü unudulmaz etmək üçün əllərindən gələni etdilər. Bayram əhval-ruhiyyəli bu tədbir xoş xatirələrlə yadda qaldı!




**2. Reception qruplarında Emosional İnkişafın Gücləndirilməsi**

Sevinc hissi ilə bildirmək istəyirik ki, məktəbəqədər bölmənin məsləhətçisi Leyla Məmiyeva hər iki Reception qrupları ilə birlikdə çox faydalı və maraqlı təlimlər keçirdi. "Hiss et və idarə et" mövzusunda keçirilən təlimlər, uşaqlara emosiyalarını anlamağı və onları daha düzgün şəkildə idarə etməyi öyrətməyə yönəlmişdi. İnteraktiv məşğələlər və fəaliyyətlər vasitəsilə uşaqlar emosional vəziyyətlərinə uyğun olaraq davranışlarını tənzimləmək üçün maraqlı metodlardan istifadə edərək öyrəndilər. Eyni zamanda, oyuncaqları bölüşmək və komanda ruhu yaratmaq kimi real həyatdan olan vəziyyətlər üzərində işləyərək, həmyaşıdları ilə əməkdaşlıq və empatiya bacarıqlarını inkişaf etdirdilər. Bu təlim  uşaqların emosional zəka və sosial bacarıqlarını inkişaf etdirməyə olan öhdəliyimizin vacib bir hissəsi idi. Uşaqlarımızın hərtərəfli inkişafına göstərdiyi dəstəyə görə Leyla xanıma dərin təşəkkürümüzü bildiririk!



**3. Neon İncəsənət Muzeyinə ekskursiya**

Transition qrupunun uşaqları Neon İncəsənət Muzeyinə ekskursiya etdilər və neon işıq incəsənətinin cazibədar dünyasını kəşf edərək həyəcanlı anlar yaşadılar. Uşaqlar canlı işıqlar və yaradıcı əsərlərlə əhatə olunmuş bu unikal incəsənət növü haqqında maraqlı və ətraflı məlumatlar əldə etdilər. Ekskursiya onların incəsənətə olan anlayışını genişləndirməklə yanaşı, eyni zamanda yaradıcılığa olan maraqlarını da artırdı. Bu unudulmaz təcrübə, uşaqlarda bədii ifadənin gözəlliyini daha dərindən dərk edərək qiymətləndirmələrinə səbəb oldu!



**4. Valideyn-uşaq münasibətləri haqqında faydalı müzakirə**

Məktəbəqədər bölmənin məsləhətçisi Leyla Məmiyeva valideynlərlə “Valideyn-uşaq münasibətləri” mövzusunda maraqlı və faydalı bir müzakirə apardı. Müzakirə zamanı valideynlərin uşaqların inkişafındakı mühüm rolu, effektiv ünsiyyət üsulları və ailə daxilində sağlam münasibətlərin yaradılması ön plana çıxarılmışdı. Leyla xanım uşaqların emosional və psixoloji ehtiyaclarını anlamaq, onlarla səmimi münasibət qurmaq üçün öz dəyərli tövsiyələrini iştirakçılarla bölüşmüşdür. Valideynlər müzakirədə fəal iştirak edərək öz fikirlərini paylaşmış, praktiki məlumatlar əldə etmişdilər. Bu müzakirə valideynlərlə uşaqlar arasında münasibətləri gücləndirmək, eləcə də, evdə həvəsləndirici və dəstəkləyici bir mühitin formalaşmasına töhfə vermək üçün əvəzolunmaz bir fürsət olmuşdur.



**5. Payız mövsümünü əyləncəli öyrənmə ilə qeyd edirik**

Payız mövsümünə həsr olunmuş həftə ərzində uşaqlar çoxsaylı maraqlı və mövsümə uyğun fəaliyyətlərdə iştirak etdilər. Festival çərçivəsində onlar digər siniflərə gedərək, hər birində xüsusi olaraq hazırlanmış tapşırıqları yerinə yetirdilər. Hər sinif uşaqlar üçün fərqli və mövsümə uyğun olaraq yaradıcı, əyləncəli fəaliyyətlər hazırlamışdı. Uşaqlar yeni biliklər əldə edərək, həm də əylənərək vaxt keçirdilər. Bu tədbir yalnız onların biliklərini zənginləşdirməklə kifayətlənmədi, həm də qarşılıqlı əməkdaşlıq və paylaşmanı gücləndirərək, onu unudulmaz və mənalı bir təcrübəyə çevirdi.



**6. Söhbət vasitəsilə Şüur Açıqlığı**

SEND Koordinatorumuz Nurlana xanım İsmayılova, uşaqlarla "Fərqindəlik" mövzusunda çox təsirli və faydalı bir müzakirə apardı. Sessiya ərzində o, uşaqlara öz duyğularını və düşüncələrini şüurlu şəkildə anlamağın və idarə etməyin vacibliyini izah etdi. Nurlana xanım həmçinin, başqalarının hisslərinə və ehtiyaclarına diqqətlə yanaşmağı, empati və anlayış qurmağı öyrədərək, uşaqlarda həm fərdi, həm də sosial bacarıqların inkişafına töhfə verdi. Bu dərin və mənalı söhbət, uşaqların emosional zəkasını gücləndirərək, onları daha şəfqətli, empatik və özünəinamlı fərdlər olaraq yetişdirmək üçün əvəzsiz bir fürsət oldu.



**7. Yaxşı gigiyena vərdişlərinin təbliği**

Məktəbəqədər bölmənin həkimi Gülşən xanım Musayeva uşaqlarla vacib gigiyena prinsipləri barədə ətraflı və məlumatlandırıcı bir sessiya keçirdi. Sessiya zamanı o, şəxsi təmizlik və sağlamlığın qorunması, əllərin düzgün yuyulması, gündə iki dəfə dişlərin fırçalanması, müntəzəm duş qəbul edilməsi və eyni zamanda təmiz paltarların geyinilməsi kimi əsas vərdişləri izah etdi. Yeməkdən əvvəl və sonra, eləcə də ayaqyolu vərdişlərini yerinə yetirdikdən  sonra, əllərin düzgün yuyulması xüsusilə vurğulandı. Şəxsi gigiyena ilə yanaşı, Gülşən xanım sağlam qidalanma və kifayət qədər yuxu almanın ümumi sağlamlıq və rifah üçün əvəzsiz olduğunu da qeyd etdi. Bu gigiyenik vərdişlər, uşaqların sağlamlığını qorumağa və infeksiyalardan uzaq tutmağa kömək etməklə yanaşı, onlarda uzunmüddətli və sağlam həyat tərzi kimi vərdişlərinin aşılanmasına təkan verir.



**8. Zorakılığa qarşı Taykeş corablar gününün qeyd edilməsi**

Məktəbəqədər bölmədə Zorakılığa qarşı Taykeş corablar günü qeyd olundu. Bu xüsusi gündə uşaqlar, fərqliliyə qucaq açaraq uyğun olmayan corablar geyindilər. Uşaqlar zorakılıqla bağlı dəyərli müzakirələrlə yanaşı, müxtəlif fəaliyyətlər icra etdilər. Onlar zorakılığın nə olduğunu, ondan necə qorunmalı olduqlarını, eyni zamanda fərqlilikləri qiymətləndirməyin vacibliyini öyrəndilər. Həmçinin, empatiya barədə düşüncələrini paylaşaraq, başqalarına hörmət etməyin və bir-birinə qarşı anlayışlı olmağın əhəmiyyətini anladılar. Bu gün, uşaqlara müxtəlifliyi qəbul

etməyi, zorakılığa qarşı çıxmağı, qarşılıqlı hörmət kimi dəyərləri inkişaf etdirməyi təşviq edən əvəzsiz bir təcrübə oldu.



**9. Transition və EYFS qruplarının valideyn iclası**

Məktəbəqədər bölmədə EYFS və Transition qruplarının valideynləri ilə çox uğurlu Valideyn-Müəllim Görüşləri keçirildi. Bu görüşlər valideynlər və müəllimlərə uşaqların inkişafını müzakirə etmək, onların təhsil prosesini dəstəkləmək və birgə iş birliyini gücləndirmək üçün bir fürsət yaratdı. Açıq ünsiyyət və əməkdaşlıq, uşaqlarımız üçün müsbət və stimullaşdırıcı bir təhsil mühitidir. Görüşlərə qatılan bütün valideynlərə dərin təşəkkürlərimizi bildiririk!



**10. Empatiya mövzusunda assambleya – Transition 1**

Məktəbəqədər bölmədə uşaqlar üçün empatiyanın əhəmiyyətinə həsr olunmuş xüsusi bir yığıncaq təşkil olundu. Tədbirin məqsədi, uşaqlara başqalarının hisslərini anlamaq və onlara həssaslıqla yanaşmaq kimi vacib sosial bacarıqları öyrətmək idi. Yığıncaqda Şaxta baba və Grinç xüsusi qonaqlar kimi iştirak edərək, fərqli davranışları ilə empatiya haqqında fikirlərini bölüşdülər. Şaxta baba xeyirxahlığın simvolu olaraq nəcibliyin və qayğının vacibliyini vurğuladı, Grinç isə başqalarının hisslərini anlamağın ona necə daha yaxşı insan olmağı öyrətdiyini göstərdi. Bu interaktiv yanaşma empatiyanın əhəmiyyətini aydın şəkildə nümayiş etdirərək, uşaqlara bu vacib dəyəri dərindən və praktik şəkildə anlamağa kömək etdi.



## İbtidai təhsil bölməsi

Zülfiyyə Rəsulova,
İbtidai məktəb bölməsinin rəhbəri

**1. 2-ci sinifin çiçəklənən yaradıcılığı: inteqrasiya olunmuş tədris təcrübəsi**

Keçən həftə 2-ci sinif şagirdlərimiz Təbiət elmləri,İngilis dili, Sosial Elmlər və Rəsm dərslərini birləşdirən maraqlı inteqrasiya olunmuş layihədə iştirak etdilər. Bu praktiki təcrübələr yaradıcılığı və fənlərarası öyrənməni təşviq etdi.

Rəsm dərsində şagirdlər öz dibçəklərini rəngarəng dizaynları və fərdi toxunuşları ilə bəzədilər. Təbiət elmləri dərsində onlar öz qablarına toxum və ya kiçik bitkilər əkib bitkilərə qulluq və böyüməyi öyrəndilər. Bitkilərin əkilməsi və onlara qulluq edilməsi, yazı bacarıqlarının təkmilləşdirilməsi ilə bağlı ingilis dilində aydın maarifləndirici mətnlər yazdılar. Nəhayət, Sosial Elmlər dərsində bitkilərin ətraf mühitimizdəki mühüm rolunu müzakirə etdilər.

Bu layihə həm də yaradıcılığı, komanda işini və məsuliyyəti inkişaf etdirdi. Layihə üçün  lazım olan materialları təmin edən və bu uğura dəstək olan valideynlərə təşəkkür edirik.


MTK




MTK





**2. 4-cü sinif şagirdlərinin Fəxri Xiyabana ziyarəti -  vətənpərvərlik və tarix dərsi**

4-cü sinif şagirdləri yaxınlarda Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad etmək üçün Fəxri Xiyabana ziyarət etdilər. Bu təhsil səfərinin məqsədi şagirdlərdə vətənpərvərlik hissi yaratmaq və Heydər Əliyevin ölkəmiz üçün etdiyi əhəmiyyətli töhfələr barədə daha dərin anlayış formalaşdırmaq idi.

Ziyarət zamanı şagirdlər onun məzarı önündə bir dəqiqəlik sükutla onun Azərbaycanın inkişafı və rifahı naminə göstərdiyi səyləri ehtiramla yad etdilər. Qrupa müşayiət edən müəllimlər Heydər Əliyevin həyatı, onun liderliyi və müasir Azərbaycanın formalaşmasındakı əvəzsiz rolu haqqında ətraflı məlumat verdilər.

Fəxri Xiyabanın sakit və mənəvi ab-havası, eləcə də yüksək səviyyədə qorunan mühiti şagirdlərə unudulmaz bir təcrübə yaşatdı. Bu gün öyrənmə və düşüncə ilə zəngin keçdi, şagirdlərə ölkələrinin tarixi və görkəmli liderlərinə qarşı dərin bir hörmət bəxş etdi.



**3. Şükranlıq günü: minnətdarlıq və birlik**

Biz müəllimlər otağında Şükran Gününü qeyd etdik və bu, əsl möhtəşəm bir görüşə çevrildi. Hər bir müəllim öz evində hazırladığı yeməyi gətirdi və otaq müxtəlif yeməklərin və desertlərin

ləzzətli ətirləri ilə doldu. Masa gözəl şəkildə bəzədilmişdi, qovrulmuş hind toyuğu, kartof püresi, salatlar, piroqlar və digər dadlı təamlar kimi ənənəvi Şükran Günü yeməkləri ilə dolu idi.

Hər kəs öz minnətdarlığını ifadə edərək ürəkdən gələn və ruhlandırıcı bir atmosfer yaratdı. Yemək zamanı biz bir yerdə xoş anlar keçirdik, hekayələr, gülüşlər və sevinc dolu anlar paylaşdıq, komanda daxilindəki bağları daha da gücləndirdik.

Bu tədbir yalnız yeməkdən ibarət deyildi, həm də birlik hissi ilə bağlı idi. Bu, bir-birimizə göstərdiyimiz dəstəyin və minnətdarlığın əhəmiyyətini bizə bir daha xatırlatdı. Bu mərasim gülüşlər, dolu qəlblər və bu ənənəni gələcək illərdə davam etdirmək vədi ilə sona çatdı.





**4. 3-cü sinif şagirdləri arasında əyləncəli yarış: komanda ruhu və sevinci**

Yaxın günlərdə 3-cü sinif şagirdləri maraqlı və enerjili idman yarışında iştirak etdilər. Məktəb meydançasında keçirilən bu tədbir komanda ruhunu, fiziki sağlamlığı və ən əsası, əyləncəni təşviq etmək məqsədi daşıyırdı.

Şagirdlər komandalar şəklində bölündülər və hər bir komanda estafet yarışları, kisə yarışları və üçayaqlı yarışlar kimi əyləncəli yarış növlərində yarışdı. Yarış boyunca şagirdlər bir-birlərini coşqu ilə alqışlayaraq böyük həvəs və komanda ruhu nümayiş etdirdilər. Hər tərəfi sevinc dolu gülüş səsləri bürümüşdü.







**5. Yaradıcılığı təşviq edərək Azərbaycan dilinə sevgi aşılamaq**

Şagirdlərdə yaradıcı düşüncə formalaşdırmaq və onların söz ehtiyatını zənginləşdirmək məqsədilə məktəbimizin müxtəlif guşələrində Azərbaycan dili ilə bağlı fəaliyyətlər təşkil olunub. Şagirdlər və müəllimlər “Həftənin sualı”na cavab verərək biliklərini sınayır və yeni faktlarla tanış olurlar. Həftəlik yenilənən aforizmlər, əlamətdar günlər və suallar bu guşədə yer alır.

“Tap Söz” guşəsi şagirdlərin öyrənməyə olan həvəsini artırır və biliklərini möhkəmləndirmək üçün imkan yaradır. Şagirdlər mövzuya uyğun sözləri taparaq həm söz ehtiyatlarını genişləndirir, həm də əylənirlər.

Azərbaycan dili müəllimlərimiz Günay Səlimova və Xumar Alırzayevanın təşəbbüsü ilə təşkil olunan bu fəaliyyətlər mütəmadi olaraq yenilənir və tədris prosesinə müsbət təsir göstərir. Eyni zamanda, bu tədbirlər şagirdlərin Azərbaycan dilinə olan sevgisini və marağını artırmağı hədəfləyir.


MƏKTƏBƏ QAYIDIŞ
1.Məktəb ✓
2.Dərs
3.Kitabxana
4.Bilik


ƏLAMƏTDAR GÜNLƏR
MTK
HƏFTƏNİN AFORİZMİ
Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.
HƏFTƏNİN SUALI
Azərbaycan Əlifbasında hansı hərflərlə söz başlamır?




**6. 4B sinfi tərəfindən təşkil olunan assambleya: planetimiz üçün təşəbbüsə çağırış**

P4B sinif şagirdləri iqlim dəyişikliyinin vacib mövzusuna həsr olunmuş maarifləndirici və təsirli bir assembly üçün bir araya gəldilər. Bu tədbirin məqsədi gənc nəsil arasında davam edən ekoloji problemlərlə bağlı məlumatlılığı artırmaq və planetimizi qorumaq üçün gündəlik həyatda müsbət addımlar atmağa ilham vermək idi.


Saving Our Planet
Discover how we can protect the Earth from climate change.
Class 4B
13


Saving Our Planet
Discover how we can protect the Earth from climate change.
Class 4B







**7. 3B Sinfinin Bakı Zooloji Parkına səfəri**

Şagirdlərin heyvanlar aləminə marağını artırmaq və öyrəndikləri nəzəri bilikləri daha da möhkəmləndirmək məqsədilə Bakı Zooloji Parkına ekskursiya təşkil olundu. Şagirdlər Zooloji Parkda yaşayan heyvanları gördülər və onlar haqqında geniş məlumat əldə etdilər. Bu, dərsliklərdə qiyabi şəkildə öyrəndiklərini yerində görmək və təcrübədən keçirmək imkanı yaratdı.

Şagirdlər heyvanların qorunması və onların həyat tərzi haqqında fikir mübadiləsi apardılar. Bu, uşaqlarda ekoloji mədəniyyətin əhəmiyyətini anlamağa kömək etdi. Ekskursiya şagirdlərin yaddaşında unudulmaz və xoş bir xatirə olaraq qaldı.



**8. Oxu bacarıqlarını inkişaf etdirmək üçün Reading Eggs platforması: müəllimlər üçün təlim sessiyası**

Müəllimlər yaxınlarda Reading Eggs platformasından bir nümayəndə ilə görüşdülər və ardından məşq sessiyasına qatıldılar. Görüş zamanı nümayəndə, Reading Eggs-in şagirdlərin oxu bacarıqlarını inkişaf etdirməkdəki əhəmiyyəti haqqında dəyərli məlumatlar paylaşdı. Məşq sessiyası müəllimlərə Reading Eggs-i tədris metodlarına necə effektiv şəkildə inteqrasiya etmələri barədə praktiki məsləhətlər verdi. Bu platforma, maraqlı və interaktiv yanaşması ilə tanınır və şagirdlərə müxtəlif əyləncəli və təhsil verici fəaliyyətlər vasitəsilə əsas oxuma və anlama bacarıqlarını inkişaf etdirməyə kömək edir.








**9. P1A və P1D Siniflərinin Neon Art muzeyinə səfəri**

Şagirdlər üçün təşkil olunan muzey səfəri həm təhsil, həm də yaradıcı mühitin yaradılması baxımından böyük əhəmiyyət kəsb edirdi. İlk olaraq iştirakçılar muzeyin müxtəlif otaqlarını gəzərək nümayiş olunan sənət əsərləri ilə tanış oldular. Neon işıqları ilə işıqlandırılmış sərgi zalı

yalnız unikal bir atmosfer yaratmaqla qalmadı, həm də sərgilənən sənət əsərlərinin cazibəsini artırdı.

Tədbirin ikinci mərhələsində şagirdlər A4 ölçüsündə kağız üzərində keçirilən seminarlarına qatıldılar. Onlara öz mövzularını seçmək imkanı verildi və bu, hər bir iştirakçının fərqli bir sənət əsəri üzərində işləməsinə şərait yaratdı. Bu təşəbbüs, onların yaradıcı potensialını inkişaf etdirmək və fərdi istedadlarını üzə çıxarmaq məqsədi daşıyırdı.

Tədbirin sonunda, ən düzgün cavabı verən şagirdə xüsusi bir hədiyyə təqdim olundu. Bu yanaşma, şagirdlər arasında rəqabət ruhunun formalaşmasında və onların motivasiyasının artırılmasında mühüm rol oynadı.





**10. 5C sinfinin gözüylə unudulmaz məktəb səfərləri**

Məktəbimiz hər yeni akademik ildə şagirdlər, müəllimlər və işçilər üçün müxtəlif səfərlər təşkil edir. Biz muzeylər, tarixi məkanlar və daha çox yerə səfər edirik. Hər səfərdən çox zövq alırıq. Məktəb avtobusları ilə səyahət edirik, bəzən qəlyanaltılarımızı yeyirik (amma həmişə deyil).

Səyahət edərkən sinif yoldaşlarımız və dostlarımızla danışır, hekayələr paylaşır və əylənirik ki, bu da səyahəti daha da maraqlı edir.

Hər səfərdən unudulmaz xatirələr qalır. Məsələn, Gobustan'a səfər edəndə hamı Azərbaycanın qədim sakinlərinin tarixinə maraq göstərirdi. Bir başqa dəfə isə Beynəlxalq Musiqi və Sənət Muzeyini araşdırdıq, burada bələdçi bizə sənət və musiqi haqqında bir çox maraqlı faktlar və hekayələr danışdı.

Bu məktəb səfərləri ilə bağlı təəssüratlarımız həmişə möhtəşəm olur. Hər dəfə yeni bir yerə səfər edəndə çox əylənirik.

Ayadil və İbrahim, 5C sinifi

**11. BBBS layihəsi - dəstək körpüləri qurmaq**

MTK, mentorlar və mentorların rəhbərləri arasında güclü əlaqələr qurmağı, emosional rifahı və inklusivliyi təşviq etməyi məqsəd qoyan **Big Brother Big Sister (BBBS)** Mentorluq Proqramını başlatmaqdan qürur duyur. Bu təşəbbüs, məktəb şagirdlərimizi dostlarına dəstək olmaq, müsbət əlaqələr qurmaq və empatik liderlər kimi inkişaf etmək üçün lazım olan bacarıqlarla inkişaf etdirir.

İndiyədək mentorlarımız üç dinamik seminarda fəal iştirak ediblər:

- **Mentee Fərqliliyi seminarı** (29 noyabr): Fatimə xanım və Nigar xanım tərəfindən idarə olunan seminarda, şagirdlər mentorluğun mahiyyətini araşdırdılar, empatiya təcrübəsi keçirdilər və rollar oynayaraq müxtəlifliyi qəbul etdilər.
- **Uşaq Təhlükəsizliyi seminarı** (6 dekabr): Aytən xanımın rəhbərliyi ilə şagirdlər fiziki təhlükəsizliyi prioritetləşdirməyi öyrəndilər və mentorların təhlükəsiz mühitdə inkişaf etməsi üçün təhlükəsizlik qaydaları yaratdılar.
- **Təsirli ünsiyyət** (13 dekabr): Cəvahir xanım və Sevinc xanım tərəfindən fasilitasiya olunan bu sessiya, “Mən” ifadələrindən istifadə etmək, qeyri-verbəl siqnalları şərh etmək və komanda qurma fəaliyyətləri üzərində fokuslanıb.

Gələcəkdə, şagirdlərimizin ünsiyyət bacarıqlarını, konflikt həlli anlayışlarını və məxfilik anlayışlarını daha da inkişaf etdirəcək maraqlı seminarlar gözləyir:

- **Konflikt həlli** (18 dekabr): Şagirdlər emosiyaları tanıyacaq, sülh yolu ilə həllər üzərində beyin fırtınası edəcək və konfliktlərin aradan qaldırılması üçün rollar oynayacaqlar.
- **Məxfilik və hədlər** (10 yanvar): Bu sessiya, şəxsi məkanın hörmətini, inamın qorunmasını və mentorluq əlaqələrində hədlərin başa düşülməsinin əhəmiyyətinə fokuslanacaq.

- **Ümumi mentorluq seminarı** (31 yanvar): Proqram mentorların təcrübələrini dəyərləndirmələri, mentor andı yaratmaları və rəhbərlik edəcəkləri şəxslər ilə tanış olmağa başlamaqları ilə sona çatacaq!

Bu seminarlar vasitəsilə, şagirdlərimiz liderlik bacarıqları inkişaf etdirir, emosional dayanıqlıq qazandırır və dəstəkləyici bir məktəb mühiti yaradırlar. Mentorlarımızın və menteelərinin daha da inkişaf etməsini və mənalı əlaqələr qurmasını səbirsizliklə gözləyirik.

Bu dönüşüm yolunda dəstəyiniz üçün təşəkkür edirik!






safety?
w to ensure
safety?


What happens if there are no rules?
If we didn't have rules and everyone could do whatever they wanted, there would be chaos.




**12. P1B və P1C Siniflərinin Neon Art Muzeyinə Səfəri**

Dekabrın 6-da, 1C və 1B  sinifinin şagirdləri Neon Art Muzeyini ziyarət etmək fürsətini əldə etdilər. Bu səfər, gənc öyrəncilərə neon sənətinin maraqlı və rəngarəng dünyasını kəşf etməyə imkan verdi.

Şagirdlər dostcanlı bir bələdçi tərəfindən isti bir şəkildə qarşılandılar və onlara neon sənətinin tarixi və texnikaları haqqında məlumat verildi. Onlar neon işıqlarının xüsusi qazlar istifadə edilərək yaradıldığını və parlaq, işıqlı nişanlar və sənət əsərləri yaratmaq üçün istifadə edildiyini öyrəndilər. Bələdçi həmçinin neon sənətinin zamanla necə inkişaf etdiyini və niyə bu gün müasir sənət növü kimi qəbul edildiyini izah etdi.








**13. P2B və P2D Siniflərinin IDEA Heyvan Baxımı Mərkəzinə Səfəri**

Dekabrın 11-də, 2B və 2D siniflərinin şagirdləri IDEA Heyvan Baxımı Mərkəzinə maraqlı və təhsilverici bir səfər etdilər. Uşaqlar pişiklər və itlərlə oynamaq imkanı əldə etdilər, onlara necə qulluq edilməsi və ehtiyaclarının necə qarşılanması barədə praktiki məlumatlar öyrəndilər. Yönləndirilən fəaliyyətlər vasitəsilə heyvanlara qarşı mehribanlıq və məsuliyyətin əhəmiyyətini kəşf etdilər. Səfər həm əyləncəli, həm də məlumatlandırıcı oldu, şagirdlərə heyvanlara qulluq haqqında gözəl xatirələr və dəyərli dərslər qazandırdı.






MTK


RE CENTER







**14. 5A sinifinin sağlam yeməyə aid fəaliyyəti**

Dekabrın 13-də, 5A sinifinin şagirdləri sağlam yemək mövzusu ətrafında təşkil olunan maraqlı bir fəaliyyətə qatıldılar. Valideynlərinin iştirakı ilə onlar sağlam həyat tərzinin əsas prinsiplərini nəzərə alaraq peçenyelər hazırladılar.

Bu fəaliyyət vasitəsilə şagirdlər sağlam həyat tərzi üçün vacib olan qidalar haqqında daha dərin anlayış əldə etdilər. Tədbir həmçinin şagirdlər və valideynlər arasında interaktiv əlaqənin qurulmasına şərait yaratdı, nəticədə həqiqətən unudulmaz və əyləncəli bir təcrübə yaşandı.




FRESH

**15. P4B sinfinin valideynlərlə birgə Yeni il mövzusunda peçenye dizaynı fəaliyyəti**





**15. P4B sinfinin valideynlərlə birgə Yeni il mövzusunda peçenye dizaynı fəaliyyəti**

Dekabrın 12-də, 4B sinifinin şagirdləri valideynləri ilə birlikdə Yeni İl mövzusunda peçenyelər dizayn edib bişirdikləri çox əyləncəli və yaradıcı bir fəaliyyətə qatıldılar. Bu praktiki təcrübə, şagirdlər və valideynlər üçün birgə işləmək, əlaqə qurmaq və bayram mövsümünü əyləncəli və maraqlı bir fəaliyyətlə qeyd etmək üçün gözəl bir fürsət yaratdı.

Şagirdlər və onların valideynləri birlikdə Yeni İl mövzusuna uyğun müxtəlif dizaynlarda peçenyelər yaratdılar, və nəticədə onlar bu birgə fəaliyyətdən inanılmaz dərəcədə zövq aldılar.





**16. P4A sinifinin Yeni il Ekoloji Torba sənəti valideynlərlə birgə**

Dekabr ayının 13-ü, 4A sinifinin şagirdləri valideynləri ilə birlikdə unudulmaz bir yaradıcı fəaliyyətə qatıldılar. "Yeni il Ekoloji Çanta Sənəti" adlı layihə, şagirdlərin yaradıcı düşüncə bacarıqlarını artırmaq və ətraf mühitin qorunmasına diqqət çəkmək məqsədi daşıyırdı.

Fəaliyyət zamanı şagirdlər təbiət dostu, təkrar istifadə oluna bilən torbalar üzərində işlədilər. Onlar torbaları parlaq rənglərlə və müxtəlif Yeni İl mövzulu təsvirlərlə dizayn edib bəzədilər. Valideynlərin iştirakı tədbirə xüsusi bir canlılıq qatdı, çünki həm şagirdlər, həm də valideynlər maraqlı ideyalarını paylaşdı və birgə əməkdaşlıq etdilər.


MTK


Merry





## Orta təhsil bölməsi Atabəy Quliyev, orta təhsil bölməsinin rəhbəri

**1. ASPNet vasitəsilə təhsil hüququnun inkişafı üzrə təşəbbüsə dair məsləhətləşmə**

8-10i sinif şagirdləri təhsil hüququnun inkişafı mövzusunda fikirlərini bölüşmək məqsədilə təşkil edilmiş dialoqa cəlb olundular. Layihənin məqsədi şagirdləri təhsil hüququ mövzusunda fəal müzakirəyə cəlb etmək, qlobal çağırışlara diqqət yetirmək və birgə çalışaraq mümkün həll yollarını araşdırmaq idi. Şagirdlər əsas mövzuları (Həssas qruplar; Rəqəmsallaşma, İqlim dəyişikliyi və təhsil) müzakirə edərək esselər yazdılar və birgə çalışaraq təqdimatlar hazırladılar. Nəticədə, şagirdlərin işləri UNESCO-nun təhsil hüququ üzrə işçi qrupuna göndərildi.














**2. Zəfərin mübarək, Vətən!**

Vətən müharibəsində qazandığımız şanlı qələbədən dörd il ötür.Bu qələbəni, bu sevinci bizə yaşadan Ali Baş Komandanımızın uzaqgörən və məqsədyönlü siyasəti, müzəffər ordumuzun cəsarəti, tarixin özü qədər ulu olan xalqımızın milli birliyi oldu.

Azərbaycan ordusu 44 gün ərzində mürəkkəb döyüş şəraitində bu gün bütün dünyanı heyrətə salacaq bir məharət göstərməklə xalqımızın qəhrəmanlıq tarixinə şərəfli bir səhifə yazdı.

Heydər Əliyev adına Müasir Təhsil Kompleksində 6 noyabr 2024-cü il tarixində keçirilmiş Assambleyada bizi möhtəşəm Zəfərimizə qovuşduran tarixi yola bir daha nəzər salındı!

8-ci siniflərin sinif rəhbərləri (8A –Kərimova Lalə, 8R1 –Xəlilova Aynur, 8R2 –Hüseynzadə Vəfa) və 8-9-cu sinif şagirdlərinin təşkilatçılığı və birgə fəaliyyəti nəticəsində ərsəyə gələn tədbir aparıcıların (Babayeva Mələk, Əliyev David) çıxışı ilə açıq elan olundu. Daha sonra şagirdlərin (Oruclu Anar, Adıgözəlov Ayxan, Qasımzadə Ömər, Həşimzadə Murad, Vəliyev İbrahim) təqdimatında hazırlanmış, özündə vətənpərvərlik hissini ehtiva edən səhnəciyin nümayişi hər kəsin marağına səbəb oldu. Tədbir Azərbaycan ordusunun qəhrəman oğullarının şərəfli döyüş yolunu və qələbəsini özündə əks etdirən sənədli filmin təqdimatı ilə davam etdirildi.

Tədbirin sonunda məktəbimizin fəxri qonaqları, Vətən müharibəsi iştirakçıları olan qazilər – 221 nömrəli tam orta məktəbin Təlim-tərbiyə işləri üzrə direktor müavini **Bədəl Hüseynli,** Azər Namazov adına 180 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi **Abbasov Əli** və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin informatka müəllimi **Asim Rəsulov**, tarix müəllimi **Fuad Məmmədov,** Təhlükəsizlik Xidmətinin əməkdaşı **Sadiq Həsənzadə** zəfər təəssüratlarını bölüşmələri üçün səhnəyə dəvət olundular.Qələbəmizin müəllifləri olan Müəllim Qəhrəmanlarımızın səmimi çıxışları böyük maraq və həyəcanla qarşılandı!

Tədbir Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin icraçı direktoru Tural Abbasovun çıxışı ilə yekunlaşdı.

**Müəllif:** Xəlilova Aynur Azərbaycan dili









**3. Gələcək burada başlayır - Zəfər gününə həsr olunmuş tamaşa**

Özüm məktəbli olanda məktəbdə keçirilən tamaşalarda oynayırdım. Zaman keçdikcə, sinifdən-sinifə adladıqca həmin tədbirlərin, tamaşaların ssenarini də yazmağa, quruluş verməyə başladım. Amma həmişə hər tədbirdə, tamaşada mənə dərindən təsir edən, ruhumu gizlincə göynədən bir ağrı var idi. Yazdığım ssenarilərin hər birinin kökündə məğlubiyyət dayanırdı. Tamaşalarda finalsızlıq var idi. Bu məni çox incidirdi.

Yaşım az olduğu üçün fikirləşirdim ki, yəqin yaxşı yazmıram, yaxşı qura bilmirəm ona görə də tamaşaların finalı ya zəif və solğun, ya da qaranlıq olurdu. Zaman ötdükcə başa düşdüm. Mən məğlub tərəfin hekayəsini yazırdım. Amma problem həllini tapmayıbsa, məğlubiyyəti qəbul etmək olmaz… ona görə də heç vaxt finallar dolğun olmurdu. Boşluqla üzürdü.

Mən sənət adamı kimi təntənəli, zəfər dolu tamaşalara təşnə idim. Zaman yetişdi. Ali Baş Komandımızın əzmi, ordumuzun cəsarətiylə qələbə qazandıq. Biz artıq qələbə dolu hekayəmizi danışmağa başladıq.

Heydər Əliyev adına Müasir Təhsil Kompleksində Zəfər gününə həsr olunmuş tamaşanın ssenarisini yazarkən çox götür-qoy etdik. Artıq dördüncü ildir ki, zəfər hekayələri danışırıq. Bu dəfə qələbəyə tamam fərqli bir kontekstdən baxmağa çalışdıq. İcraçı direktorumuz Tural

müəllimin təklifi ilə gələcəyə - Qarabağın gələcəyinə səyahət etdik. Süjet xətti Qarabağ Universitetində dərs deyən müəllimin öz tələbələri ilə apardığı söhbət əsasında qurulub. Əhməd müəllim (Atabəy müəllim) tələbələrdən (Mələk Babayeva, İnci Məmmədli - 8a, Eldar Həsənzadə - 9a, Koroğlu Rəhimli - 9r1) onların arzularını və hədəflərini soruşur.

Tələbələr Qarabağ Universitetində aldıqları təhsilin onlara kosmodromlar qurmaq, ölümcül xəstəliklərin müalicəsini tapacaq tibbi müəssisələr yaratmaq kimi xəyal və hədəflərinə çatmaqda necə kömək etdiyini danışırlar. Onların arzuları səhnədə Turan xanımın qurduğu müasir kontenpererilər vasitəsilə canlanır.

Mənim üçün tamaşanın ən zirvə nöqtəsi isə rəssam və şair olmaq istəyən tələbələrin gələcəkdə "canlı heykəl" texnikası ilə şəhidlərimizi dünyaya tanıtmaq ideyasını səsləndirdiyi məqam idi. Şeiri yazarkən və səhnəni qurarkən həyəcandan ürəyim şiddətlə döyünürdü. Tamaşa gözlədiyimdən də təsirli oldu. Tamaşaçılar səhnədə şəhidlərimizi canlandıran heykəllə qarşılaşanda necə təsirləndiklərini hiss edə bilirdim. Bunu alqışlar da təsdiqləyirdi.

Bu tamaşanın ərsəyə gəlməsində əməyi keçən hər kəsə dərin təşəkkürümü bildirirəm.

Müəllif: Pərviz Seyidli Dram üzrə koordinator





**4. Zəfər Gününə İncəsənət Yanaşması**

Məktəbimizin İncəsənət departamenti Zəfər Günü münasibətilə xüsusi və dərin mənalı bir layihə həyata keçirmişdir. Şagirdlər, şəhidlərimizin əziz xatirəsini yaşatmaq məqsədilə **agamograph** texnikasından istifadə edərək təsirli sənət əsərləri yaratmışlar.

**Agamograph** texnikası – bir əsərdə iki fərqli görüntünün birləşdirilməsinə imkan verən unikal bir incəsənət növüdür. Bu üsul tamaşaçıya əsərə fərqli bucaqlardan baxaraq müxtəlif təsvirləri müşahidə etmə imkanı yaradır. Layihə çərçivəsində şagirdlər şəhidlərin portretlərini onların şəhadətə ucaldığı məkanlarla sintez edərək həm vizual, həm də emosional olaraq təsirli sənət əsərləri ərsəyə gətirmişlər.

Bu əsərlər məktəbimizin foyesində sərgilənmiş və müəllimlər, şagirdlər və əməkdaşlar tərəfindən böyük maraqla qarşılanmışdır. Layihə yalnız estetik baxımdan deyil, həm də milli dəyərlərin yaşadılması və gənclərin vətənpərvərlik ruhunun gücləndirilməsi baxımından əhəmiyyətli olmuşdur.

Məktəb rəhbərliyi və kollektiv adından İncəsənət departamentinin müəllimlərinə və bu layihədə iştirak edən bütün şagirdlərə təşəkkürümüzü bildiririk. Bu təşəbbüs, incəsənətin milli vətənpərvərlik hisslərinin ifadəsi üçün nə qədər güclü bir vasitə olduğunu bir daha sübut etmişdir.

Şəhidlərimizə rəhmət, vətənimizə əmin-amanlıq arzu edirik!

**Müəllif:** Ələsgər Əsədov **STEAM və İncəsənət üzrə koordinator**




Xudayar Yusifzadə












**5. Qələbə sevinci: müasir texnologiyalarla yaradıcı yanaşma**

Yuxarı sinif şagirdləri, "Zəfər Günü" münasibətilə müasir texnologiyaları və yaradıcılığı birləşdirən maraqlı bir aktiv zona təşkil etmişlər. "Qələbə Sevinci – Müasir Texnoloji Vasitələrlə" adlı bu zona STEAM departamentinin təşəbbüsü ilə həyata keçirilmiş və məktəbin bütün ziyarətçiləri üçün unikal bir təcrübə təqdim etmişdir.

Zona çərçivəsində ziyarətçilər öz "qələbə sevincləri"ni tərənnüm etmək üçün üçölçülü modellər hazırlamaq imkanı qazanmışlar. Bunun üçün Tinkercad proqramından istifadə edilmişdir.

Şagirdlərin dəstəyi ilə hazırlanan 3D modellər xüsusi 3D printer vasitəsilə çap edilmişdir. Növbəti mərhələdə, iştirakçılar digər masaya keçərək çap olunmuş modelləri rəngləyərək tamamlama fürsəti əldə etmişlər. Bu fəaliyyətlər həm texnologiyaya marağı artırmış, həm də yaradıcılığı stimullaşdırmışdır.

Bu layihə təkcə texnoloji biliklərin tətbiqi deyil, həm də şagirdlər arasında əməkdaşlıq, təşəbbüskarlıq və milli ruhun gücləndirilməsi baxımından əhəmiyyətli olmuşdur. STEAM departamenti və şagirdlər bu prosesdə həm yaradıcılıqla, həm də vətənpərvərlik hissləri ilə yadda qalan bir iş ərsəyə gətirmişlər.

Məktəb rəhbərliyi bu təşəbbüsü yüksək qiymətləndirərək, STEAM departamentinə və iştirak edən bütün şagirdlərə təşəkkür edir. Bu layihə, müasir texnologiyalar vasitəsilə milli bayramlarımızın və dəyərlərimizin necə uğurla tərənnüm edilə biləcəyinin parlaq nümunəsidir.

**Müəllif:** Ələsgər Əsədov STEAM və İncəsənət üzrə koordinator







**6. Heydər Əliyev şagirdlərin gözü ilə**

Məktəbimizin şagirdləri ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş xüsusi bir guşə hazırlamışlar. STEAM və ART departamentlərinin təşkilatçılığı ilə həyata keçirilən bu layihə şagirdlərə milli irsimizə yaradıcı yanaşma imkanını təqdim etmişdir.

Bu guşənin ən diqqət çəkən xüsusiyyəti, Heydər Əliyevin portretlərinin 3D perspektivində hazırlanmasıdır. Üçölçülü dizayn texnikası (3 dimensional art) sənət əsərlərinə dərinlik və real görüntü təsiri qazandırır. Bu texnika vasitəsilə şagirdlər yalnız təsviri sənətlə məhdudlaşmayıb, texnologiya və bədii düşüncəni bir araya gətirərək daha təsirli bir təqdimat hazırlamışlar.

Guşədəki əsərlər, Heydər Əliyevin xatirəsini yaşatmağın müasir və innovativ bir üsulunu nümayiş etdirmişdir. Şagirdlərin əl işi ilə yaradılmış bu əsərlər ziyarətçilərin marağına səbəb olmuş və məktəb icması tərəfindən yüksək qiymətləndirilmişdir.

Layihənin əsas məqsədi Heydər Əliyevin zəngin irsini yad etməklə yanaşı, gənclər arasında milli dəyərlərin önəmini vurğulamaq olmuşdur. Bu cür tədbirlər vasitəsilə şagirdlər öz yaradıcılıqlarını nümayiş etdirir və tarixi şəxsiyyətlərə hörmətlərini ifadə edirlər.

**Müəllif:** Ələsgər Əsədov STEAM və İncəsənət üzrə koordinator

**7. Enhancing Student Behavior: A Journey of Growth and Discipline at MTK Baku**

At MTK , we take pride in fostering an environment where discipline and personal growth go hand in hand. This fall, from September to November, we have witnessed remarkable progress in student behavior, highlighted by a **36% average reduction in detentions**. This improvement is a testament to our community's commitment to understanding and applying the school's principles of responsibility, reflection, and growth.




| TYPE OF ACTION | |
|---|---|
| 1 | no homework |
| 2 | Tardiness |
| 3 | Misbehave in class |
| 4 | Being in not authorized school areas or misbehave in other areas than classroom |
| 5 | Disrespect the teacher |
| 6 | Disrespect a student |
| 7 | cheating in test |
| 8 | Misusing Tech |
| 9 | other |

**Şagirdlərin Davranışlarının Yaxşılaşdırılması: MTK-da İnkişaf və Nizam-İntizama Gedən Yol**

Biz MTK-da nizam-intizam və şəxsi inkişafın bir-birini tamamladığı bir mühit yaratdığımız üçün qürur duyuruq. Bu payız, sentyabrdan noyabr ayına qədər, xüsusilə **məktəbdaxili kənarlaşdırmanın 36% azaldılması ilə** şagirdlərin davranışlarında əhəmiyyətli irəliləyişlər müşahidə etmişik. Bu irəliləyişlər məktəbin məsuliyyət, refleksiya və inkişaf prinsiplərini başa düşmək və tətbiq etmək mövzusunda cəmiyyətimizin üzərinə götürdüyü məsuliyyəti göstərir.

**Üç əsas prinsipin təsiri: Cavab, Refleksiya və İslah**

Bizim nizam-intizam siyasətimizin mərkəzində həmin üç prinsipin tətbiqi dayanır:

1. **Cavab**: Şagirdləri öz hərəkətlərinə görə dərhal məsuliyyət daşımağa təşviq etmək. Nizam-intizam tədbirləri
2. **Refleksiya**: Şagirdlərin davranışlarının təsirini anlamaq üçün introspeksiya (özünümüşahidə) imkanı yaratmaq. Refleksiya

3. **İslah**: Şagirdləri öz səhvlərini düzəltmək və icma daxilində etimadlarını yenidən qazanmaq yolunda istiqamətləndirmək.Bu yanaşma şagirdlərə öz hərəkətlərinin əhəmiyyətini dərk etmələrinə şərait yaradaraq sinif otaqlarında, dəhlizlərdə və ortaq istifadə olunan yerlərdə daha ahəngdar bir mühitin formalaşmasına töhfə vermişdir. İslah

**Şagird Şurası: şagirdlər tərəfindən şagirdlər üçün idarəetmə** Bu yarımilin digər vacib nüanslarından biri də şagirdlərin təşəbbüsü ilə şagirdlər üçün Şagird Şurasının uğurla formalaşdırılması oldu. Bu şura şagirdlərin səsi kimi çıxış edərək məktəbdəki birgə fəaliyyəti yaxşılaşdırmaq və təhsil müəssisəsinin inkişafına töhfə vermək məqsədi ilə aydın hədəflər müəyyən edir.Şuranın əsas məqsədləri:

- Həmyaşıdlar arasında hörmət və birgə çalışmanı təşviq etmək.
- Məktəb icmasına fayda verən layihələr hazırlamaq və həyata keçirmək.
- Bütün siniflərdə müsbət bir mühit yaratmaq üçün nümunəvi davranış nümayiş etdirmək.

Onların səyləri komanda işinin və şagird liderliyinin nəzərəçarpacaq dərəcədə inkişafına gətirib çıxaracaq və məktəbimizin dəyərlərini daha da zənginləşdirəcəkdir.

**Gələcəyə baxış**

Əldə etdiyimiz irəliləyişlər heyətimizin, şagirdlər və valideynlərin ortaq səylərinin nəticəsidir. Gələcəyə doğru addımlayarkən hələ də bu məqsədlərimizə sadiq qalırıq:

• Şagird Şurasının təsirini genişləndirmək.

• Üç əsas prinsipin tətbiqini daha da gücləndirmək.

• Hörmət, refleksiya və birgə inkişaf dəyərlərimizi gücləndirən mərhələləri qeyd etmək.

Heydər Əliyev adına Müasir Təhsil Kompleksi olaraq atdığımız hər addım xarakter və əməkdaşlığa önəm verən bir təhsil mühiti yaratmaq yolundakı öhdəliyimizi gücləndirir. Gəlin, bu səfəri yeni enerji və məqsədlərimizlə davam etdirək!

**Müəllif:** Ramiro Londoño, Orta təhsil pilləsi üzrə Pastoral Koordinator

**8. Fəxri Xiyabana Ziyarət**

Ümummilli lider Heydər Əliyevin xatirəsini anmaq məqsədilə şagirdlərimiz bu yaxınlarda Fəxri Xiyabanda onun məzarını ziyarət etmək imkanı qazandılar. Bu ziyarət Azərbaycanın tarixi və gələcəyinin formalaşmasında mühüm rol oynamış bir liderin əbədi irsi haqqında düşünmək üçün tələbələrimizə mənalı bir səyahət oldu.

Məktəbimizin milli qürurun və irsimizə hörmətin aşılanmasına olan sadiqliyinin bir hissəsi olaraq, bu ziyarət Heydər Əliyevin ölkənin inkişafı və birliyi naminə misilsiz töhfələrinin bir daha

xatırlanmasına xidmət etdi. Böyük liderin məzarı önündə dayanan şagirdlərimiz onun xatirəsini anaraq gül dəstələri qoydular və sükutla yad etdilər.

Bu təcrübə şagirdlərimizin yaddaşında dərin iz buraxaraq, Heydər Əliyevin ömrü boyu təcəssüm etdirdiyi əzmkarlıq, fədakarlıq və vətənpərvərlik dəyərlərini bir daha gücləndirdi. Şagirdlərimiz cəmiyyətə müsbət töhfə vermək və Ümummilli Liderin müdafiə etdiyi prinsipləri qorumaq üçün yenilənmiş bir məsuliyyət hissi ilə geri döndülər.

Heydər Əliyev adına Müasir Təhsil Kompleksi olaraq, biz inanırıq ki, millətimizin tarixi ilə əlaqə qurmaq sabahın liderlərinin formalaşması üçün çox vacibdir. Bu kimi ziyarətlər şagirdlərimizin keçmişi daha dərindən anlamasına kömək edir və onları gələcəyin qurucusu olmağa ruhlandırır.

Bu yaddaqalan ziyarətin təşkilində əməyi keçən bütün əməkdaşlara və koordinatorlara, habelə bu tədbirə layiqincə yanaşan şagirdlərimizə dərin təşəkkürümüzü bildiririk.















**9. Azərbaycan Milli Peyk İnnovasiya müsabiqəsi çərçivəsində təlimlər keçirildi**

16 dekabr 2024-cü il tarixində Azərbaycan Milli Peyk İnnovasiya Müsabiqəsi layihəsinin rəsmi başlanğıcı ilə əlaqədar olaraq təlimlərə start verilmişdi. Bu layihə Azercosmos şirkətinin təşkilatçılığı ilə həyata keçirilmiş, IDEIA Space şirkətinin nümayəndələri Azərbaycana səfər edərək fasilitator müəllimlər üçün 5 günlük təlim proqramı təşkil etmişdilər. Təlimlər 16-20 dekabr tarixlərində keçirilmiş və müəllimlərə kosmik texnologiyalar sahəsində nəzəri və praktiki biliklər təqdim olunmuşdu.

Təlimlərin əsas məqsədi, müəllimlərə “PocketQube” piko-peykinin dizaynı, qurulması və idarə edilməsi mövzusunda dərin biliklər vermək idi. Bu biliklər vasitəsilə fasilitator müəllimlər şagirdlərə kosmik texnologiyaların əsaslarını, peykin inşasını, idarə edilməsini və proqramlaşdırılmasını öyrətmişdilər. Fasilitatorlar layihə hazırlığı zamanı peyk mexanizmlərini öyrənmiş və kosmik missiyaların tərtibi prosesinə yaxından cəlb olunmuşdular.

Təlimlər yalnız nəzəri biliklərlə məhdudlaşmamış, həmçinin müəllimlərə praktiki təcrübələr qazandırılmışdı. Bu, şagirdlərin təhsilində mühüm rol oynamış və onların yaradıcı düşüncə və problem həll etmə bacarıqlarını inkişaf etdirmişdi. Kosmik texnologiyalar sahəsində geniş biliklərə malik olan müəllimlər şagirdlərə daha effektiv tədris metodları tətbiq etmişdilər.

Məktəbi təmsil edən Aytel Əsədova və Sabinə Məlikzadə də bu təlimlərdə iştirak etmişdilər. Onlar əldə etdikləri biliklər və təcrübələr vasitəsilə şagirdlərin təhsil prosesini daha da inkişaf etdirmişdilər.

Azərbaycan Milli Peyk İnnovasiya Müsabiqəsi çərçivəsində qalib komandaların ən mühüm vəzifəsi, hazırladıqları PocketQube piko-peykinin tam formaya salınmasını təmin etməkdir. Bu peyk SpaceX Falcon 9 raketi vasitəsilə kosmik yerətrafı orbitə göndəriləcək. Qalib komanda üzvləri bu prosesə rəhbərlik edəcək və peykin kosmosa göndərilməsini həyata keçirəcəklər.

Təlimin sonunda qalib komanda üzvləri əldə etdikləri məlumat və bacarıqları digər peyk layihələrində istifadə etmək imkanını əldə edəcəklər.






**10. Orta məktəb assambleyası: "Zəka Döyüşü" viktorinası mədəni müxtəlifliyi və dil biliklərini təqdir edir**

4 dekabr 2024 — Orta məktəb tələbələri uzun zamandır gözlədikləri "Zəka döyüşü" viktorinası üçün toplaşaraq böyük həyəcan və enerji ilə dolu bir gün yaşadılar. Bu tədbir mədəni müxtəlifliyi, dillərin əhəmiyyətini və qlobal düşüncə tərzini qeyd etmək məqsədi daşıyırdı.

**Səmimi qarşılanma və maraqlı rəqabət**

Tədbirin açılışında təqdimatçı İrem Baysinopun səmimi və coşğulu çıxışı auditoriyaya xoş bir əhval-ruhiyyə bəxş etdi. O, bu tədbirin əyləncəli, maarifləndirici və dostcasına rəqabət mühitində keçəcəyini vurğuladı. Viktorinanın əsas məqsədi tələbələrdə maraq oyatmaq və dünyanın mədəni müxtəlifliyini tanıtmaq və dil öyrənmənin əhəmiyyətini çatdırmaq idi.

**Komandalarla tanışlıq**

Tədbirdə altı komanda iştirak edirdi və hər biri öz biliklərini, çevik düşüncə qabiliyyətlərini və dünyadakı mədəniyyətlərə olan maraqlarını nümayiş etdirdi:

1. **Fact Fighters**
2. **Genius Knights**

3. **Sharp Minds**
4. **Wise Warriors**
5. **Quizzards**
6. **Bright Stars**

Ümumilikdə viktorinada 36 tələbə iştirak etdi. Tədbiri sadəcə yarışma deyil, eyni zamanda bilik və öyrənmə həvəsini çoşğulu bir bayrama çevirdi.

**Tədbirin əhəmiyyətli anları**

Viktorina bir neçə mərhələdə keçirildi və hər bir mərhələ dünyanın dilləri, mədəniyyətləri və qlobal biliklərlə bağlı maraqlı və düşündürücü suallardan ibarət idi. Tələbələr öz geniş bilikləri və sürətli düşüncə qabiliyyətləri ilə auditoriyanı valeh etdilər.

Bundan əlavə, tədbirdə xüsusi bir musiqi çıxışı da yer aldı. **Xumar Cəfərli** tərəfindən ifa olunan və birliyə və müxtəlifliyə həsr olunmuş mahnı iştirakçılarda böyük təəssürat yaratdı. Həmçinin, **Tatyana Petrilova**, **Qabil Kərimli**, **Eltun Xəlilov**, **Eldar Quliyev** və **Ümidcan Cayırbek** dillər və dil öyrənmə ilə bağlı dəyərli fikirlərini bölüşərək tədbirə xüsusi bir rəng qatdılar.

**Təltiflər və nəticələr**

Tədbirin sonunda viktorinanın hazırlanmasında göstərilən böyük səylər vurğulandı. Müasir Dillər üzrə Koordinator Aida Həsənova və Dil və Təlimə Dəstək üzrə Koordinator Nətavan Qocayeva tədbirin uğurla keçirilməsi üçün etdikləri işlərə görə xüsusi təşəkkürlə qarşılandılar. Orta Məktəb Şöbəsinin rəhbəri Atabəy Quliyev də təşkilatçılara səmimi təşəkkürlərini çatdırdı.

Gərgin final mərhələsindən sonra qalib komanda elan edildi və coşqulu alqışlarla qarşılandı. Bütün iştirakçılar maraqlı çıxışlarına görə təqdir edildilər və onlara həvəsləndirici hədiyyələr təqdim olundu.

**Yadda qalan təcrübə**

"Zəka Döyüşü" viktorinası yalnız bir yarışma deyil, həm də bilik, mədəniyyətlərə hörmət və öyrənmə sevgisinin bayramı oldu. Tədbirə qatılan hər kəsi ürəkdən təbrik edirik və bu unudulmaz günü təşkil etdiklərinə görə təşkilatçılara dərin təşəkkürümüzü bildiririk!

**Müəllif:** Natavan Qocayeva, İngilis dili müəllimi və LLS koordinator


QUIZZARDS


Look at your device
Wise Warriors


PROBLEM
CAUSES
photosynthesis
SMART TITANS










### 11. MTK-da Heydər Əliyevin xatirəsinə həsr olunmuş voleybol çempionatı

26 noyabrdan etibarən MTK-da 8-11-ci siniflər arasında Heydər Əliyevin anım gününə həsr olunmuş voleybol çempionatı keçirilir. Bu turnir şagirdləri idmanla məşğul olmağa həvəsləndirməklə yanaşı, tarixi şəxsiyyətin xatirəsini anmaq üçün gözəl bir fürsətdir.

**Çempionatın məqsədləri:**

- Şagirdlər arasında voleybolu daha populyar etmək
- Sağlam həyat tərzini və fiziki inkişafı təşviq etmək
- Şagirdlərin asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaq
- Ən güclü komandaları seçərək onları mükafatlandırmaq

**Turnirdə artıq maraqlı oyunlar keçirilib və hər bir komanda öz oyun tərzi ilə fərqlənib:**

- **8r1 Komandası:** Aleksandra Qrubina kritik məqamlarda komandasını xilas edən əsas oyunçu kimi seçilib.
- **8r2 Komandası:** David Əliyevin strategiyası və ağıllı oyun tərzi bu komandanı fərqləndirib.
- **8a Komandası:** Fiziki baxımdan güclü, lakin az koordinasiyalı 9a komandasını (2-1) məğlub edərək göstərdikləri konsentrasiya və komanda işi hamının diqqətini çəkib.
- **8i1 Komandası:** Artem Sleptsov və Timur Tulumen güclü servisləri və aqressiv hücumları ilə yadda qalıblar.
- **8i2 Komandası:** Nuray Hüseynova və Tatyana Perfilova yüksək səviyyəli oyunları ilə komandalarının uğurunda əsas rol oynayıblar.
- **9r1 Komandası:** Əla komanda koordinasiyası ilə tanınan bu komanda hər zaman maraqlı oyunlar sərgiləyib.
- **9i Komandası:** Oyunçular arasındakı effektiv ünsiyyət möhtəşəm oyunlar üçün zəmin yaradıb.
- **10r Komandası:** Güclü hücumlar və mükəmməl komanda işləri ilə rəqiblərinə çətin anlar yaşadıblar.
- **11i Komandası:** Qarşılıqlı dəstək və taktiki yanaşmaları ilə Yeqor Sleptsov və Sofya Quliyeva oyunu çox yaxşı idarə ediblər.

Bu çempionat yalnız rəqabət ruhunu artırmır, həm də şagirdlər arasında dostluq əlaqələrini möhkəmləndirir və fiziki sağlamlığı gücləndirir. Qarşıdakı oyunlar həyəcanla gözlənilir və ən güclü komandanın kim olacağı böyük maraq doğurur.


HEYDƏR ƏLİYEV


HEYDƏR ƏLİYEV ADINA MÜASİR TƏHSİL KOMPLEKSİ


THE MODERN EDUCATIONAL COMPLEX NAMED IN HONOUR OF HEYDAR ALIYEV


HEYDƏR ƏLİ


HEYDƏR ƏLİYEV ADINA MÜASİR TƏHSİL KOMP


HEYDƏR ƏLİYEV AD







**11. Xaricdə təhsil barədə məlumat sessiyaları**

26 noyabr tarixində kompleksimizdə Xaricdə təhsillə bağlı növbəti informasiya sessiyası keçirildi. Bu dəfə qonağımız Koç universitetinin Beynəlxalq Tələbə Qəbulu üzrə Aparıcı mütəxəssisi Arina Kalina oldu və görüş olduqca maraqlı keçdi . Görüş zamanı şagirdlərimiz universitetin təklif etdiyi müxtəlif akademik proqramlar, qəbul prosesi, təhsil haqqı, təqaüd və kampus həyatı ilə bağlı faydalı məlumatlar əldə etdilər.

Koç Universiteti, İstanbulda yerləşən prestijli bir ali təhsil müəssisələrindən biridir. Tələbələrinə dünya standartlarında təhsil təqdim edən universitet, müasir tədris metodları və fərdi inkişaf mərkəzli yanaşma ilə tanınır.

4 dekabr tarixində İngiltərənin ən nüfuzlu universitetlərindən biri olan University College London (UCL)-in rəsmi nümayəndəsi Martin White kompleksimizdə yuxarı sinif şagirdləri ilə görüşdü. Şagirdlər görüşdə aktiv iştirak edərək universitetin təməl (foundation) və bakalavr proqramları ilə yanaşı universitetin təklif etdiyi digər imkanlar barəsində həm ətraflı məlumat əldə etdilər, həm də onları maraqlandıran suallara cavab tapdılar.

Əsası 1826-cı ildə qoyulmuş, İngiltərənin London şəhərində yerləşən University College London İngiltərənin üçüncü ən qədim universitetidir.

**Müəllif:** Aysel Əliyeva, Ali təhsil üzrə məsləhətçi










## MTK-da anti-bullinq həftəsi, Zülfiyyə Rəsulova, İbtidai təhsil bölməsinin rəhbəri

Ötən ayın əvvəli - 4-7 noyabr tarixlərində Kompleksimizdə Anti-Bullinq həftəsi qeyd olundu. Bu əlamətdar tədbir şagirdləri, müəllimləri və şəxsi heyəti bir araya gətirərək dərin mənalı bir ismarıc verdi. "Hörmət" mövzusu başqalarına mehriban və anlayışlı yanaşmağın vacibliyini vurğulayaraq, həftənin ruhunu formalaşdırdı.

Həftə boyunca dəstəkləyici və inklüziv bir mühit yaratmaq üçün maraqlı tədbirlər təşkil edildi. İnteraktiv şagird toplantıları bullinq haqqında açıq müzakirələr aparmaq üçün şərait yaratdı. Şagirdlər fikirlərini bölüşməklə daha hörmətli bir məktəb mühiti yaratmaq üçün yeni yollar öyrəndilər. Bundan əlavə PSHE və digər dərslər bullinqin qarşısını almaq üçün strategiyalara fokuslandı. Bu dərslər şagirdlərə empatiya göstərmək, aktiv dinləməyi öyrənmək və şəxsi sərhədlərə hörmət etmək bacarıqları qazandırdı.

Həftə ərzində şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirmək üçün təşkil olunan kiçik incəsənət sərgisində onların bullinq mövzusunda çəkdikləri əsərlər nümayiş olundu. Gənclərin baxışlarını əks etdirən bu əsərlər həm diqqət çəkdi, həm də dərin müzakirələrə səbəb oldu. Bununla yanaşı, rəngarəng və əyləncəli Fərqli Corablar Günü həftənin ən yaddaqalan hadisələrindən biri oldu. Şagirdlər və müəllimlər bir-birinə uyğun olmayan corablar geyinərək fərqlilikləri qeyd etdilər və bu hər kəsə sevinc bəxş etdi.

Məktəb icması olaraq ümid edirik ki, hər kəs özünü hansı şəraitdə olmasından asılı olmayaraq, hörmətli və dəyərli hiss edir. Bu həftə bizə xatırlatdı ki, başqalarına hörmət göstərmək özünə hörmət və anlayışla başlayır. Anti-Bullinq həftəsinin uğuru isə hər kəsin birgə səyi ilə mümkün oldu. Tədbirdə iştirak edən və dəstək olan hər kəsə dərin təşəkkürümüzü bildiririk.






STOP
STOP BULLYING









## Xaricdə təhsil almaq üçün universitet seçimi necə edilməlidir? Aysel Əliyeva, Ali təhsil üzrə məsləhətçi

Universitet və düzgün ixtisas seçimi etmək şagird və valideynlər üçün vacib qərarlardan biridir. Bu seçim, məzun olduqdan sonra şagirdlərin gələcək peşəkar karyeralarını qurmağında mühüm rol oynayır. Universitet seçərkən bir sıra vacib faktorlar mövcuddur ki, bu məqalədə ətraflı şəkildə onları müzakirə edəcəyik.

**1. Ölkə seçimi**

Universitet seçimi etməzdən əvvəl təhsil almaq istədiyiniz ölkəni müəyyən etmək lazımdır. Hər bir ölkənin özünəməxsus qəbul şərtləri, təhsil haqqı, dil tələbləri və yaşayış mühiti mövcuddur. Məsələn, Amerika, Kanada, İngiltərə kimi ölkələr yüksək reytinqli universitetləri və keyfiyyətli təhsil imkanları ilə tanınır, lakin müvafiq ölkələrdə təhsil almaq və yaşamaq hər kəs üçün əlverişli olmaya bilər. Buna görə universitet seçimi edərkən ölkələr üzrə qaydaları nəzərdən keçirmək vacibdir. Yaşadığınız ölkəyə yaxın xarici universitet seçməklə həm səyahət xərclərinizə, həm də vaxtınıza qənaət etmiş olacaqsınız. Bununla yanaşı, ev kirayəsi, yemək və nəqliyyat və s. kimi xərcləri də nəzərə almağınız və büdcənizə uyğun ölkəni seçməyiniz tövsiyyə olunur.

**2.Universitetin reytinq göstəricisi**

Xaricdə təhsil almaq üçün seçdiyiniz universitetin reytinqi və məzun olduqdan sonra təqdim edilən diplomun ölkədə tanınması nəzərə alınmalı ən vacib məqamlardan biridir. Buna görə də, seçdiyiniz universitetin Beynəlxalq Reytinq Agentlikləri tərəfindən tərtib olunan reytinq cədvəllərindəki mövqeyini əvvəlcədən araşdırmaq tövsiyyə olunur. Reytinqlər oxumaq istədiyimiz universiteti müəyyən etməyə və düzgün seçim etməkdə işinizi asanlaşdırır. Seçdiyiniz ixtisas üzrə universitetlərin sıralamasını əvvəlcədən yoxlamaq məqsədəuyğundur. Universitetlərin reytinqlərini müvafiq saytlara keçid etməklə yoxlamaq mümkündür:

- Times Higher Education World University Rankings

- [QS World University Rankings]

**3. Təhsil haqqı**

Təhsil və yaşayış xərcləri ölkə və universitetlər üzrə fərqlənir. Seçdiyiniz ölkə üzrə universitetin təhsil haqqı və yaşayış xərclərini əvvəlcədən araşdırmaq məsləhətdr. Məsələn, Amerika, Kanada və İngiltərə kimi ölkələrdə təhsil haqqı nisbətən yüksək olsa da, Almaniya, Çexiya, Polşa kimi ölkələr təhsil almaq üçün qismən münasib hesab olunur.

**4. Viza müraciət qaydası**

Xaricdə yaşamaq və işləmək istəyən gənclər həmin ölkənin miqrasiya qaydaları haqqında məlumatla əvvəlcədən tanış olmalıdırlar. Hər ölkənin viza prosedurları fərqlidir, buna görə də, vizaya müraciət etməzdən əvvəl rəsmi mənbələrə istinad edərək müvafiq ölkə üzrə qaydalarla tanış olmaq tövsiyyə olunur.



*1 - https://www.abroadadvise.com/study-abroad-from-nepal/*

## UNESCO ASPnet və qlobal təhsilə töhfəmiz, Aynur Məmmədova, UNESCO ASPnet koordinatoru

MTK olaraq biz beynəlxalq miqyasda qlobal vətəndaşlıq, sülh və dayanıqlı inkişafı təşviq edən UNESCO ASPnet (Assosiativ Məktəblər) Şəbəkəsinin  üzvləriyik. Son 5 il ərzində məktəbimiz UNESCO ASPnet tədbirlərində, müsabiqələrində və layihələrində fəal iştirak edərək şagirdlərimizi məlumatlı, məsuliyyətli və fəal qlobal vətəndaşlar olmağa ruhlandırmışdır.

UNESCO ASPnet ilə əməkdaşlıq çərçivəsində MTK  inklüziv və beynəlxalq baxışlı təhsil təmin etməyə sadiqdir. Bu, xüsusilə Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) tədris proqramımıza inteqrasiyası deməkdir ki, buraya Keyfiyyətli Təhsil (SDG 4) və Dayanıqlı Şəhərlər və İcma (SDG 11) da daxildir. Şagirdlərimiz bu məqsədlər üzərində fəal hərəkət etməyə, məlumatlılığı artırmağa və məktəb icmamızda müsbət dəyişikliklər etməyə təşviq olunurlar.

Bu il MTK Şagird Səfirləri SDG ilə bağlı layihələrdə əsas rol oynayacaqlar. Bu səfirlər həmyaşıdları ilə əməkdaşlıq edərək Ekoloji Davamlılıq üçün Kompost Layihəsi və Avtizm Mərkəzi kimi yerli mərkəzlərlə əlaqələri gücləndirən inklüziv layihələr həyata keçirəcəklər. Bu addımlar vasitəsilə onlar qlobal problemlər haqqında məlumatlılığı artıracaq, icmamıza dəstək olacaq və liderlik, empatiya və əməkdaşlıq ilə problem həll etmə bacarıqlarını inkişaf etdirəcəklər.

Şagirdlərimizi qlobal məsələlərlə bağlı fəal iştirak etməyə ruhlandıraraq, MTK növbəti nəsil dəyişiklik yaradan liderlərin formalaşmasına kömək edir. Bizim məqsədimiz şagirdlərimizin dayanıqlı və inklüziv bir gələcəyə töhfə vermək hissi ilə hərəkət etdiyi bir mədəniyyət yaratmaqdır.




«GO DOWN
MOSES»
JAZZ
DAY





## “Yaşıl dünya naminə həmrəy olaq” şüarı altında sərgi, Tünzalə Məmmədova (coğrafiya müəllimi) və Jalə İsmayılova (fizika müəllimi)

Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən respublikamızda bir sıra silsilə tədbirlər təşkil olunmuşdur.

Sərəncamda bildirilir ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Həmçinin yaşıl enerji növlərinin yaradılması  və əhəmiyyəti də vurğulanmışdır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi bizim ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasına bariz nümunədir.

Bu verilən töhfələri nəzərə alaraq, Heydər Əliyev adına Müasir Təhsil Kompleksi olaraq bu mövzuda şagirdlərlə birgə bir sıra tədbirlər keçirilib .

Belə ki, 6 noyabr tarixində coğrafiya müəllimi  Tünzalə Məmmədova və fizika müəllimi Jalə İsmayılova tərəfindən təşkil edilən layıhədə COP29, “Yaşıl dünya naminə həmrəylik ili”

çərçivəsində 6-9 cu sinif şagirdlərinin  sərgi üçün hazırladıqları əl işləri nümayiş olundu . Bu sərgi Kompleksin şagird və məktəb kollektivi tərəfindən maraqla qarşılandı.

Həmçinin şagirdlər tərəfindən alternativ, bərpa olunan enerji mənbələri  və  bu istiqamətdə  Respublikamızda görülən işlər haqqında, işğaldan azad edilmiş torpaqlarda həyata keçəcək tədbirlərdən, "ağıllı şəhər", "ağıllı kənd" kimi layıhələr barəsində  geniş məlumat verdilər.

Şagirdlərimizin maarifləndirilməsi məqsədilə bu cür tədbirlərin keçirilməsi və iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün hər bir insanın rolunun əhəmiyyəti, onların enerji səmərəliliyi, su ehtiyatlarının qorunması, tullantıların azaldılması və təkrar emal kimi gündəlik fəaliyyətlərdə iştirak etməyə qarşı həssaslıq nümayiş etdirməsi vacibdir.







ZƏFƏR GÜNÜ
AZƏRBAYCANDIR!
SAVE THE EARTH
THINK GREEN, LIVE CLEAN.




YAŞIL DÜNYA HƏMRƏYLIK
ILI


ZƏFƏR GÜNÜ
QARABAĞ AZƏRBAYCANDIR!
Yaşıl zona




## COP29 -un Yaşıl Zonası Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin şagirdlərinin ziyarətçi marağına səbəb oldu, Tünzala Məmmədova, coğrafiya müəllimi

Yaşıl zona müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, vətəndaşlar auditoriyasının bir araya gələrək ünsiyyət qura biləcəyi məkandır.

COP29 Sədrliyi tərəfindən təşkil və idarə olunan Yaşıl zona müxtəlif iştirakçıların öz baxışlarını bölüşə bilmələri üçün dinamik platformadır. Bu zona cari innovasiyaların, eləcə də iqlim dəyişmələri ilə mübarizə üzrə potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panellər və əyani nümayişlər üçün mərkəz funksiyasını yerinə yetirir.

COP29 Sədrliyinin rəhbərliyi altında olan Yaşıl zonanın təşkilində konseptual məqsəd iqlim dəyişmələri ilə mübarizə sahəsində dövlət qurumları ilə bütün maraqlı tərəflər arasında mühüm əməkdaşlıq əlaqələrinin qurulmasıdır.

11-22 noyabr tarixlərində Bakıda keçirilən COP29 iqlim konfransı çərçivəsində təşkil edilən Yaşıl Zona COP29 - da Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin 9-11-ci sinif şagirdləri də iştirak edərək qlobal iqlim fəaliyyətinin bir hissəsi oldular. Onlar sərgi stendlərindən ibarət olan, ümumi sahəsi 36 min kvadratmetr sahəni əhatə edən Yaşıl Zonanın bir hissəsinə baxış keçirdilər. Şagirdlər Alternativ və Bərpa olunan enerji mənbələri, bu istiqamətdə Respublikamızda görülən işlər, Azərbaycanın **"yaşıl vədləri",**

"Yaşıl" iqtisadiyyata keçid və "yaşıl" enerji təchizatçısına çevrilməyin Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindən biri olduğu haqqında geniş məlumat aldılar.

Həmçinin şagirdlər Global Olympiad Center-in rəsmi tərəfdaşı olan Climate Science Olimpiadasının mükafatlandırma mərasimində də iştirakçı oldular.


BAKU WHITE CITY


BAKU WHITE CITY
silkway
west airlines
Worldwide Azerbaijan Cargo


AGEC


silkway
west airlines




COP29
Baku
Azerbaijan







## Ulu Öndər Heydər Əliyev məktəb illərində, Leyla Hüseynova, tarix və coğrafiya üzrə koordinator

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Elə tarixi şəxsiyyətlər vardır ki,

onlar tarixə yön veriblər. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev məhz XX əsrin tarixini məqsədyönlü fəaliyyəti ilə istiqamətləndirən dövlət xadimi idi. Dahi insan Heydər Əliyev istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik illərində xalqımızın tarixini, dilini, adət-ənənəsini xarici təsirlərdən qorumağı özünə bir həyat fəlsəfəsinə çevirmişdi. Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti bir fədakarlıq nümunəsidir. Onun mirası isə bugünkü Müstəqil Azərbaycandır! Bəli, Heydər Əliyev həyatını xalqına, müstəqil dövlətçiliyimizin qorunmasına həsr etmiş lider idi. O, xilaskar idi.

Bu məqalədə dahi insan, fenomen Heydər Əliyevin uşaqlıq illərindən maraqlı məqamları sizə çatdırmağa çalışacağıq.

*Heydər Əliyev kimi böyük dövlət xadimi, dünya siyasi meydanının dahisi məktəb illərində necə şagird olub? Onun maraqları hansı sahələrə idi? Nəyə görə onu generala bənzədirdilər? Müəllimləri onun gələcəyi haqqında hansı mübahisəni etmişdilər?*

Heydər Əliyev orta təhsilini Naxçıvan şəhərinin mərkəzində yerləşən 1 saylı beynəlmiləl məktəbdə təhsil alıb. Bu məktəb birmərtəbəli, kürsülü binada yerləşirdi. Bu bina bolşeviklərin hakimiyyətə gəlişi nəticəsində təzyiqlərə məruz qaldığına görə vətəni tərk etməyə məcbur qalmış varlı ailənin evi idi.

Məktəbdə təhsil üç dildə idi: Azərbaycan, rus, erməni. Heydər Əliyev Azərbaycan bölməsində oxuyurdu. Eyni zamanda, rus bölməsində oxuyan yaşıdları ilə sıx ünsiyyət onun bir neçə ildən sonra fikrini rus dilində sərbəst ifadə etməsinə səbəb olmuşdu. Heydər Əliyevin dil öyrənməsində, dünyagörüşünün artmasında təbii ki, çoxlu mütaliyə etməsi rol oynayırdı. Əvvəllər ana dilində ədəbiyyat oxuyan Heydər Əliyev sonralar rus dilli ədəbiyyata, kitablara maraq göstərdi. Heydər Əliyevin aldığı kitablar evdə rəfləri zənginləşdirmişdi. O, bir gün evə Hötenin "Faust" əsərini gətirir. O qədər həvəslə bu kitabı oxumağa başlayır ki, kiçik qardaşı da həvəs göstərib bu kitabı oxumaq istəyir. Lakin əsər çox ağır olduğundan əsəri oxumağı yarımçıq qalır.

Bir gün Heydər Əliyev məktəbə atasının dəmiryolçu şineli (xüsusi biçimdə tikilmiş qış-üst geyimi) ilə gedir. O, artıq yuxarı sinifdə oxuyurdu və ucaboylu oğlan idi. Şinel ona çox yaraşmışdı. Sinif yoldaşlarından biri – "sən lap generala oxşadın ki"-dedi. Həmin gündən yoldaşları Heydər Əliyevi general deyə çağırmağa başladılar.

Yoldaşları, müəllimləri xatirələrində Heydər Əliyevin çox səliqəli bir məktəbli olduğunu vurğulayırlar. O, geyindiyi kostyumunun şax duruşu ilə, köynəyinin hər zaman təmiz və ütülü olması ilə seçilirdi. Onu heç kimlə səhv salmaq mümkün deyildi. Onu həmdə təmkinli biri kimi xatırlayırlar. Yoldaşlarının mübahisəsi zamanı o yalnız barışdırıcı mövqedə olur, ağıl və səbri ilə tərəfləri barışdırırdı.

Hərbi hazırlıq dərsində Heydər Əliyev sərrast atırdı. Onun hərbi hazırlıq müəllimi sonralar İkinci Dünya müharibəsində Mozdok döyüşlərində şöhrət qazanmış, general-mayor rütbəsinə ucalmış Akim Abbasov idi. Akim müəllim tələbəsi Heydər Əliyevə deyirdi: "Sənin böyük gələcəyin var. Sən general olacaqsan." Heydər Əliyev idmanı da çox sevirdi. Hətta tez-tez şəhər yarışlarında texnikumu təmsil edirdi.

Rəsm çəkməyə də marağı olan Heydər Əliyev sonralar 1999-cu il oktyabrın 14-də XII əsrdə görkəmli Memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı Mömünə xatun türbəsini ziyarəti zamanı çıxışı zamanı bu hobbisi haqqında deyir:

"Yadımdadır, mən burada yaşayan zaman, gənc vaxtımda, məktəbdə oxuyanda gəlib bunun ətrafında gəzirdim. Məktəbdə oxuyanda çoxlu rəsm çəkirdim, buna həvəsim vardı, rəssam olmaq istəyirdim. Onda memar nə olduğunu heç başa düşmürdüm. Ancaq rəsm çəkdiyimə görə axtarır, gözəl yerləri çəkirdim. Məsələn, Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Mömünə Xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, mən Bakıya, oradan Leninqrada, Moskvaya gedəndən sonra buradakı kitablarım, çəkdiyim şəkillər hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkilmiş çox gözəl şəkillərim vardı."

İstedadı, məsuliyyəti, aglı ilə həmyaşıdlarından seçilən Heydər Əliyevin arzuları sonsuz idi. Onun rəssam olmaq, memar olmaq, müəllim olmaq arzuları qol-budaq açaraq yeni arzularla çiçəkləndi. Gələcəkdə onu hansı böyük uğurlar, hansı möhtəşəm işlər gözləyirdi – bunu tarix göstərdi. Zaman göstərdi ki, Heydər Əliyev mənsub olduğu xalqı üçün bir xilaskar kimi gəlmişdi. Onun yaratdığı Azərbaycan Respublikası bu gün Qafqazın seçilən dövlətidir və dünyaya işıq saçır.







## Kolumbiya ədəbiyyatı və Azərbaycan gəncləri: Birinci Kolumbiya ədəbi forumu, Fidan Bəylərova, Məktəb direktorunun şəxsi köməkçisi

10 dekabr 2024-cü il tarixində Heydər Əliyev adına Müasir Təhsil Kompleksi (MTK) Kolumbiya ədəbiyyatının nüfuzlu nümayəndələrini qonaq edərək unudulmaz bir ədəbi tədbirə ev sahibliyi etmişdir. Azərbaycan Respublikası ilə Kolumbiya Respublikası arasında diplomatik əlaqələrin 30 illik yubileyinə həsr olunmuş bu tədbir "Kolumbiya Ədəbiyyatı Azərbaycan gəncləri ilə dialoqda" adı altında yuxarı sinif şagirdləri üçün xüsusi olaraq təşkil olunmuşdu.

Tədbirin iştirakçıları arasında şair, esseist və tərcüməçi Lauren Mendinueta, tarixçi və yazıçı Carlos Alfredo Betancourt, mədəni işlər üzrə təşkilatçı və nəşriyyat məsləhətçisi Martín Gómez, eləcə də Kolumbiyanın Azərbaycandakı səfiri Luis Fernando Cuartas Ayala və səfirliyin müşaviri Andres Felipe Giraldo vardı. Tədbirin əsas məqsədi Kolumbiya ədəbiyyatını Azərbaycan gənclərinə yaxından tanıtmaq, bu iki mədəniyyət arasında körpü qurmaq idi.

Tədbir boyunca şagirdlər onlarda maraq doğuran mövzularla bağlı suallar ünvanlayaraq qonaqlarla dialoqlar qurdular. Bu qarşılıqlı müzakirələr ədəbiyyata olan sevgini daha da dərinləşdirərək yeni öyrənmə perspektivlərinə yol açır. Qonaqlar öz ilhamverici hekayələrini auditoriya ilə bölüşmüş, həmçinin Azərbaycan mədəniyyəti, gənclərdə oxuma vərdişləri və ədəbiyyatın universallığı kimi mühüm məsələlərə də toxunmuşdular.

Tədbirdən sonra qonaqlar məktəbin direktoru Nelson Urrego və icraçı direktor Tural Abbasovla birgə kompleksimiz ilə də tanış olmuş və xoş təəssüratlarını bölüşmüşdülər. Lauren Mendinueta isə öz kitabını MTK kitabxanasına bağışlayaraq bu məkanı ədəbiyyatsevərlər üçün daha da dəyərli etmişdir.

Bu tədbir Kolumbiya və Azərbaycan mədəniyyətləri arasında dialoq yaratmaq, ədəbiyyatın millətləri yaxınlaşdıran güclü vasitə olduğunu bir daha vurğulamaq baxımından çox vacib idi. Gələcəkdə bu cür beynəlxalq mədəni mübadilələrin artmasının həm şagirdlər, həm də məllimlər üçün öyrətmə imkanları yaradacağı şübhəsizdir.


MTK
FIRST COLOMBIAN
LITERARY FORUM
CELEBRATING 30 YEARS OF DIPLOMATIC RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE REPUBLIC OF COLOMBIA


HEYDƏR ƏLİYEV
adına
Müasir Təhsil Kompleksi




MTK
2001
FIRST COLOMBIAN LITERARY FORUM
CELEBRATING 30 YEARS OF DIPLOMATIC RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE REPUBLIC OF COLOMBIA
VENUE: MTK ASSEMBLY HALL
DATE: DECEMBER 10 2024, AT 10:00 AM
Luis Fernando Cuartas Ayala: Ambassador of Colombia to the Republic of Azerbaijan
Lauren Mendinueta: Poet, essayist, and translator. She has published eleven poetry books across Colombia, Mexico, Spain, Italy, and Portugal.
Martín Gómez: A Colombian publishing consultant and cultural organizer.
Carlos Alfredo Betancourt: A Colombian historian and writer known for his work in preserving the history of the Valle del Cauca region.
Andres Giraldo: Counselor at the Colombian Embassy in Azerbaijan
MODERATOR: Dr. Nelson Urrego, School Principal MTK



## Profil: Tərbiyə işləri üzrə koordinatorumuz Ramiro Londonyo ilə tanış olun. Müsahibəni götürdü: Nelson Urreqo

Cənab Ramiro Londoño kolumbiyalı pedaqoqdur. O, MTK kollektivinə riyaziyyat koordinatoru, orta təhsil pilləsi üzrə pastoral koordinator və riyaziyyat müəllimi kimi qoşulmuşdur.

**NU:** Salam, cənab Ramiro, dəvətimizi qəbul edib sizi daha yaxından tanımağımıza imkan yaratdığınız üçün təşəkkürlərimi bildirirəm. MTK Xəbər Bülleteninin oxucuları həmişə yeni əməkdaşlarımız haqqında daha çox öyrənməyə can atırlar. Bizə biraz məktəbimiz haqqında ilk təəssüratlarınızdan danışa bilərsinizmi?

**RL:** İlk təəssüratlarım elə ilk müsahibə günümdə yaranmışdı və bu, mənə müəllimlik etmək istədiyim yerin məhz elə bura olduğunu anlamağıma kifayət etmişdi. Məktəbə daxil olduğum andan etibarən məni çox mehribancasına qarşıladılar və ünsiyyətdə olduğum hər bir insan mənimlə tam səmimi və mehriban idi.

Bundan əlavə, burada keçirdiyim vaxt ərzində yalnız müəllimlər və işçilərin deyil, eyni zamanda şagirdlərin də yaratdığı bu mükəmməl atmosferi hiss etdim. Hər şeydən əvvəl, gördüyüm hörmət ən önəmlisi idi. Xarici bir müəllim olaraq bu mənim üçün olduqca vacibdir.

**NU:** Azərbaycanı və onun mədəniyyətini bu qədər çox sevməyinizin səbəbi nədir?

**RL:** Bakıya gəlmək fürsəti mənim üçün böyük bir sürpriz olmuşdu. Tezliklə, bunun xüsusi bir səbəbi olduğunu anladım: qarşılıqlı öyrənmə. Azərbaycanın zəngin mədəniyyətini, tarixini və ənənələrini təcrübə etmək mənə həm şəxsi, həm də peşəkar baxımdan inkişaf etmək imkanı verdi. Azərbaycanlıların mehribanlığı və özünəməxsus qonaqpərvərlikləri ilə ölkəmdən bu qədər uzaqda olmağıma baxmayaraq, özümü doğma evimdə olduğu kimi hiss edirdim.

**NU:** Kolumbiya və Azərbaycan mədəniyyətləri arasında oxşarlıqlar varmı?

**RL:** Əlbəttə ki! Hər iki mədəniyyət ailə dəyərlərinə və qonaqpərvərliyə böyük önəm verir. Kolumbiyada da Azərbaycanda olduğu kimi qonaqları xoş qarşılamağımızla qürurlanırıq. Bir digər oxşarlıq isə adət-ənənələr və bayramların əhəmiyyətidir, bunlar insanları bir araya gətirərək mədəni irsin zənginliyini vurğulayır. Bu mədəni xüsusiyyətlər mənə Azərbaycandakı həyat tərzinə daha rahat uyğunlaşmağa və onu, həqiqətən də, yüksək qiymətləndirməyimə kömək etdi.

**NU:** Təhsil sahəsindəki təcrübələriniz haqqında bir qədər ətraflı danışa bilərsinizmi? Müəllim olmağa necə qərar verdiniz?

**RL:** Qısaca izah etməyə çalışacam. Mühəndislik üzrə təhsil alarkən eyni zamanda 16 yaşımda universitetdə riyaziyyat və fizika dərslərini keçməyə başladım və bu da mənim təhsil sahəsindəki ilk təcrübəm idi. Universitetdə birinci və sonuncu kurs tələbələrinə dərs keçirdim və məhz o zamanlar müəllimliyi nə qədər çox sevdiyimi anladım.

Mühəndis kimi işləsəm də, müəllimlik fəaliyyətimi də paralel olaraq davam etdirirdim. Doğru anı seçərək artıq tamamilə təhsilə yönəlməyə qərar verdim. Bakıya gəlməzdən əvvəl Kolumbiyanın Boqo-ta şəhərindəki beynəlxalq məktəbdə riyazi analiz üzrə müəllim və Riyaziyyat Kafedrasının Müdiri olaraq çalışırdım.

Mənim üçün müəllimlik sadəcə dərs keçməkdən ibarət deyil, həmçinin şagirdlərə həyatda və cəmiyyətdə uğur qazanmaq üçün lazım olan bacarıqları öyrətməkdir və məhz buna görə də müəllim olmağı seçdim.

**NU:** Təşəkkür edirəm. Kolumbiyada müəllimlik ilə Azərbaycanda müəllimlik arasında nə kimi fərqlər var? Hər iki ölkə təhsildə oxşar çətinliklərləmi üzləşir?

**RL:** Həm Kolumbiya, həm də Azərbaycandakı müəllimlik fəaliyyəti mədəni, sosial və təhsil mühitləri ilə əlaqəli unikal təcrübələr təqdim edir. Kolumbiyada siniflər çox dinamik və interaktiv bir mühitə sahibdir və burada şagirdlər fikirlərini bildirməyə və fəal iştirak etməyə təşviq olunurlar. Kolumbiya sistemində şagirdlərin müxtəlif sosial-iqtisadi köklərinə görə yaradıcılığa və uyğunlaşmaya böyük əhəmiyyət verilir. Azərbaycanda isə sinifdə nizam-intizama, ənənələrə və hörmətə xüsusilə diqqət yetirilir ki, bu da nizamlı bir öyrənmə mühiti yaradır. Şagirdlər və müəllimlər arasındakı münasibət daha rəsmidir və təhsil sistemi akademik dəqiqlik və nailiyyətlərə böyük önəm verir. Kolumbiyada təhsil sistemi şagirdlərin layihələr üzərində işləyərək öyrənmələrini nəzərdə tutur, Azərbaycanda isə şagirdlər standartlaşdırılmış imtahanlara hazırlaşmaq və peşəkar inkişaflarına yönəlmək üçün təhsil alırlar və bütün bunlar iki ölkənin təhsil sistemindəki fərqli üslubları göstərir.

Və bəli, hər iki ölkə təhsil sahəsində bəzi oxşar çətinliklərlə qarşılaşa bilir, məsələn: **Təhsil Sahəsindəki Boşluqların Aradan Qaldırılması, Təhsildə Qloballaşma, Şagirdlərin Cəlb Edilməsi, Müəllimlərin Təlimi Və İnkişafı.** Lakin sinifdə olduğum zamanlar bir daha anlayıram ki, uşaqlar arasında heç bir fərq yoxdur, uşaq elə hər yerdə uşaqdır.





**NU:** Riyaziyyat müəllimi və koordinatoru olaraq məktəbdə riyaziyyatın tədrisi barədə təəssüratlarınız nələrdir?

İlk öncə mənə riyaziyyat komandasının bir hissəsi olmaq və şagirdlərin bu fənn üzrə hər keçən gün daha da inkişaf etmələrinə kömək etmək imkanının verilməsinə görə öz minnətdarlığımı bildirmək istəyirəm.

Məktəbdə riyaziyyatın tədrisi barədə təəssüratlarım çox müsbətdir. Məktəb problemin məntiqi həlli və riyazi prosedurlar üzrə güclü bir təmələ sahibdir. Üstəlik şagirdlər standartlaşdırılmış

imtahanlarda yaxşı nəticələr əldə edirlər və ən önəmlisi, onlar riyaziyyatı sevirlər və bu, şagirdlərin riyaziyyata uzunmüddətli maraq göstərmələri üçün böyük bir fürsətdir.

İnkişaf sahələrinə gəldikdə isə komanda olaraq ümumi ortalamaları qaldırmaq üçün standartlaşdırılmış imtahanlarda nəticələri daha da yaxşılaşdırmağın nə qədər vacib olduğunu qəbul edirik. Xüsusilə, riyazi məsələlərin həllində şagirdlərin oxuyub-anlama bacarıqlarını inkişaf etdirmək də mühüm əhəmiyyət kəsb edir. Bu, onların riyaziyyatı praktik bir vasitə kimi real həyatda qarşılaşdıqları problemlərin həllində istifadə etmələri üçün hazırlayır.

Riyaziyyat koordinatoru olaraq bizim güclü bir təməlimiz və böyük potensialımız olduğunu əminliklə deyə bilərəm və komanda olaraq birgə daha da inkişaf edib uğur qazanacağımız günləri görmək fikri məni çox həyəcanlandırır.

**NU:** Pastoral koordinatoru olaraq şagirdlərimizin davranışlarında hansı güclü cəhətləri müşahidə etmisiniz və qarşıda bizi hansı çətinliklər gözləyir?

**RL:** Pastoral Koordinator olaraq şagirdlərimizin davranışlarında bir çox müsbət cəhətlər müşahidə etmişəm. Onların ən güclü tərəflərindən biri bir-birilərinə dəstək olmaları və fərqli cəhətlərinə hörmətlə yanaşmalarıdır və bu, onların güclü bir birlik və cəmiyyət anlayışına sahib olduqlarını göstərir. Lakin şagirdlər arasında nizam-intizam və özünütənqidə meyilli bir düşüncə tərzi formalaşdırmaq yolunda çətinliklər hələ də bizi gözləyir. Şagirdlərə münaqişələri düzgün şəkildə idarə etməyə kömək etmək və məktəb qaydalarına və gözləntilərinə uyğun hərəkət etmələrini təmin etmək inkişaf etməli olduğumuz sahələrdəndir. Bir digər məsələ isə şagirdlərə akademik və şəxsi həyatlarında üzləşdikləri çətinliklərə qarşı daha çox əzmkarlıq göstərmələri və məsuliyyət daşımaları yolunda dəstək olmaqdır.

İrəliləyən dövrdə sərbəstlik və məsuliyyət arasında tarazlığı qorumaq daha önəmli olacaq. *Cavab, Refleksiya və İslah* kimi dəyərləri vurğulamağa davam edərək şagirdləri hörmətcil, özlərini və cəmiyyətə qarşı məsuliyyətlərini dərk edən fərdlər olmağa yönləndirə bilərik.

**NU:** Son zamanlar orta məktəb şagirdlərimizin davranışlarında hansı müsbət dəyişiklikləri müşahidə etmisiniz?

**RL:** Bu payız, sentyabrdan noyabradək, xüsusilə də, **məktəbdaxili kənarlaşdırmanın 36% azaldılması ilə** şagirdlərin davranışlarında nəzərəçarpan irəliləyişləri müşahidə etmişik. Bu irəliləyiş məktəbin məsuliyyət, refleksiya və inkişaf prinsiplərini başa düşmək və tətbiq etmək mövzusunda cəmiyyətimizin üzərinə götürdüyü məsuliyyəti göstərir. Həmçinin, şagirdlər dərslərə vaxtında gəlməyin və məktəbə hörmət göstərməyin vacibliyini dərk ediblər.

**NU:** Niyə hörmət kimi əsas dəyərləri sonrakı nəsillərdə təşviq etmək vacibdir? Hörmət anlayışını necə aşılamaq olar? (Həmçinin, valideynlərin rolu barədə də danışa bilərsiniz)

**RL:** Hörmət kimi əsas dəyərlərin sonrakı nəsillərdə təşviq edilməsi harmonik və məhsuldar cəmiyyətlərin qurulması üçün olduqca vacibdir. Bugünkü qloballaşmış dünyada gənclər hər gün müxtəlif mədəniyyətlər, fikirlər və perspektivlərlə qarşılaşırlar. Hörmət anlaşma və birgə çalışmanın əsasını təşkil edir və gənclərin qloballaşmış mühitdə uğurla inkişaf etmələrinə imkan yaradır. Hörmət empatiyanı gücləndirir, münaqişələri azaldır və faydalı münasibətləri formalaşdırır, bütün bunlar isə şəxsi və peşəkar uğur üçün vacibdir. Bundan əlavə, ailə dəyərlərin öyrənilməsində mühüm rol oynayır, çünki insanın ilk öyrəndiyi dəyərlər ailədə formalaşır və məktəbdə aldığı təhsilin inkişafına təkan verir, uyğunluğun olması isə bu prosesin əsas hissəsidir.

**NU**: Ailənizdən başqa, vətəninizdən ən çox nədən ötrü darıxırsınız və vətən həsrəti ilə necə başa çıxırsınız?

**RL**: Elə sizin də dediyiniz kimi, bəli, ailəmdən ötrü çox darıxıram, amma eyni zamanda Kolumbiya yeməkləri üçün də burnumun ucu göynəyir. Sözsüz ki, buradakı yeməklər də çox ləzzətlidir, amma Kolumbiyada olub da burada olmayan bəzi yeməklər var ki, ən çox da onlar üçün darıxıram. Vətən həsrəti çəkməyim deyə isə ilk öncə bir pişik alıb adını Kal-el qoydum və artıq onun bir yaşı var. O, mənim dostumdur. Həmçinin, Bakıda latınlar olduğu üçün də şanslıyam, bizim həmin latınlarla bir qrupumuz var və hər dəfə onlarla görüşəndə latın mədəniyyəti ilə bağlı bəzi şeylər etməyə çalışırıq.

**NU:** Latın Amerikası mədəniyyətimiz olduqca rəngarəngdir, futbol, musiqi və rəqsi (digər sahələr arasında) isə xüsusilə sevirik. Bəs məktəbimizdə bu mədəniyyəti daha yaxından tanıtmaq üçün hansısa bir planınız və ya təklifləriniz varmı? Məsələn, salsa klubu, hahaha?

**RL:** Salsa klubu və ya merengue klubu çox yaxşı bir fikirdir, hehehe, film klubu da ola bilər. Düşünürəm ki, məktəbdə hər kəsin öz mədəniyyətindən bir şeylər – musiqi, yemək və ya rəqs nümayiş etdirə biləcəyi bir gün keçirmək çox maraqlı ola bilər. Çərşənbə günləri bir neçə ibtidai sinif şagirdi ilə ispan dili klubu keçirirəm və onları ispan dilində sözlər və cümlələr öyrənərkən dinləmək çox gözəl bir hisdir.

**NU:** Cənab Ramiro, ayırdığınız vaxta görə çox təşəkkür edirəm. Sizinlə söhbət etmək çox xoş oldu.

**RL:** Dəvətiniz üçün təşəkkürlər və ən əsası bu gözəl insanlarla və mühitlə tanış olmaq imkanını mənə verdiyiniz üçün minnətdaram.

## 🎨 Yaradıcı beyinlərə çağırış! 🎨 Təbiət elmləri şöbəsi üçün divar dizaynı! Simon Bleyk, təbiət elmləri üzrə koordinator

Yaradıcılığınızı işə salın və Təbiət Elmləri Şöbəsinin Şüarına uyğun divar dizaynı ilə sənətkarlığınızı nümayiş etdirin:

**"Bilik sonsuzdur; həmişə öyrənməyə davam et."**

Sizin dizaynınız gələcək nəsil şagirdlərə ilham verə bilər və məktəbimizin elmə olan marağı artırmasında önəmli bir yer tuta bilər!

**Müsabiqə Təfərrüatları:**

- **Kimlər iştirak edə bilər?** Bütün şagirdlər (İbtidai və Orta məktəb)—fərdi və ya qrup şəklində.
- **Təqdim edilə bilən iş sayı:** Hər bir fərd və ya qrup yalnız bir iş təqdim edə bilər.
- **Mövzu: "Bilik sonsuzdur; həmişə öyrənməyə davam et"** şüarını dizaynınıza əlavə edin.
- **Mükafatlar:**
  - 🏆 **1-ci yer**: Böyük mükafat + laboratoriyalarda divar dizaynının nümayişi!
  - 🥈 **2-ci yer**: Xüsusi mükafat və tanınma!
  - 🎉 **Fərqlənən təqdimatlar**: Məktəbdə nümayiş etdirilmə!

**Xüsusi Tədbir:** 1-ci yerə layiq görülmüş dizayn laboratoriyalarımızda mərkəzi yer tutacaq və 28 fevral 2025-ci il tarixində keçiriləcək Beynəlxalq Elm Günü tədbirində nümayiş olunacaq!

**Vacib Tarixlər:**

- **Təqdimat üçün son tarix: 17 yanvar 2025, cümə.**
- **Qaliblər elan ediləcək: 2025-ci ilin fevral ayının əvvəli**.

📩 **Təqdim etmək üçün şərtlər:**

Dizaynlarınızı Orta məktəb üzrə Təbiət Elmləri Şöbəsinə, Simon xanım Bleykə (Biologiya kabineti) təqdim edin və ya dizaynınızın surətini MS Teams-ə e-poçtla göndərin, bağlantı: Science Conference 24-25 | Science Motto competition | Microsoft Teams

**Xəyallarınızı sərbəst buraxın və məktəbimizə ilham verin! 🌟**

**Elə bugün dizayn etməyə başlayın, çünki bilik və yaradıcılıq, həqiqətən, sonsuzdur!**

**Qeyd: "Bilik sonsuzdur; həmişə öyrənməyə davam et." şüarı bütün təqdimatlarda ingilis dilində saxlanılmalıdır.**

## 8i1 və 8i2 şagirdlərinin Balaxanı Sənaye Parkına ekskursiyası, İlham Abdullayev, 8i1 sinif şagirdi

2024-cü il noyabrın 29-da  Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin 8i1 və 8i2 sinif şagirdləri Balaxanı Sənaye Parkını ziyarət etdilər. Səfərin məqsədi şagirdlərə plastik və digər materialların necə təkrar emal edildiyini və bunun üçün hansı texnologiyalardan istifadə edildiyini öyrətmək idi. Biz bu ekskursiyada çox sayda bu cür nəhəng maşınlar gördük. Bu maşınlar hər gün fərqli tullantıları  təkrar emal edirlər. Biz plastikin necə təmizləndiyini və sonra onun müxtəlif materiallar və ya əşyalar üçün istifadə oluna biləcək çox kiçik parçalara kəsildiyini gördük. Hər bir plastik təkrar emal prosesindən əvvəl təxminən 3 dəfə təmizlənir. Təmizləndikdən sonra maşınlar plastiki kiçik parçalara kəsir. Biz həmçinin gündəlik həyatda istifadə etdiyimiz bəzi əşyaları və onların necə hazırlandığını gördük. Məsələn, karton, kağız, tort qutusu və s. Biz oradakı işçilərin işlərinin nə qədər çətin olduğunu müşahidə etdik. Fabrik çox böyük idi. İşçilər çox mehriban və qayğıkeş idilər. Onlar bizə oradakı əsas məlumatları verdilər və ətraflı izah etdilər.  Həmçinin texnikaların necə işlədiyini və bunun nə qədər çətin olduğunu göstərdilər. Biz şagird olaraq  bu səfəri çox bəyəndik.






şəhər









## Təlimə nəfəs vermək: tənəffüs sisteminə aid plakatlar, Suri Hüseynova, 7i2 sinif şagirdi

Bu yaxınlarda Biologiya dərsimizdə 7i1 və 7i2 siniflərindən olan zəhmətkeş şagirdlərimiz “İnsanın tənəffüs sistemi” haqqında bir neçə gözəl, rəngli plakatlar üzərində çox işlədilər. Bu birgə səy hər birimizə bədənimizin necə nəfəs aldığını daha dərindən öyrənməyə, eyni zamanda

yaradıcılığımızı ifadə etməyə imkan verdi! Bu yazıda hər kəsə ağciyərlərimizin necə işlədiyini və nə üçün vacib olduğunu öyrənməyə kömək edəcəyik.

Biz hamımız qruplar halında birləşdik, hamımızın sevdiyi möhtəşəm ləvazimatlarla dolu rəsm otağımızdan resurslarımızı aldıq və işə başladıq! Bu layihə üzərində birlikdə işləyərək sinifimiz tənəffüs sisteminin ümumi sağlamlıqdakı həyati rolunu daha dərindən dərk etdi. Bu əyləncəli proses bizə burnumuz, farenks, qırtlaq, nəfəs borusu, bronxlar və ağciyərlərimiz haqqında çox şey öyrətdi. Bu sistem həyat üçün vacibdir, ona görə də hamımız bu barədə bilməliyik.






The Human
Respiratory System


Respiratory


The Human Respiratory System
Respiratory System
MTK






## COP29 könüllülərin baxışı ilə, Akif Məmmədyarov 9r1 sinif şagirdi

Hörmətli dostlar, mən Akif Məmmədyarov Kompleksimizin 9r1 sinfinin şagirdiyəm. COP29 -da iştirakım barəsində təəssüratlarımı sizinlə bölüşmək istərdim.

Ölkəmizdə belə böyük və beynəlxalq konfransın keçirılməsini biləndə mən bir vətəndaş olaraq bu konfransda iştirak etməyi xəyal etdim və xəyalım gerçəkləşdi.

Belə ki, COP29-da işçi qüvvəsi komandasında könüllü kimi iştirak etdim. Könüllü olaraq biz konfrans iştirakçılarını, işçiləri və digər könüllüləri qeydə almaqda yardımçı olurduq, çalışırdıq ki, orada olanların iştirakı rahat olsun və iştirakçılar özlərini diqqətsiz hiss etməsinlər. Bizim könüllülər komandası konfransın təşkilində böyük rol oynayırdı.

Qeyd etmək istəyirəm ki, mənim könüllü iştirak etdiyim məkan “Yaşıl zona” adlanırdı. Orada maraqlı stendlər, layihələr təqdim olunurdu. İştirakçılardan konfransın təşkilatçılığı, ölkəmiz, şəhərimiz barədə müsbət rəylər eşidəndə mən bir vətəndaş olaraq qürurlanırdım və keçirdiyim hislər məni Ulu Öndərimizin kəlamını bir daha yadıma salırdı: “Mən fəxr edirəm ki, mən Azərbaycanlıyam!”

Burada iştirak etmək həm şəxsi inkişafımızda, həm də gələcək hədəflərimizdə bizə böyük üstünlüklər verdi. Belə böyük və beynəlxalq konfransda iştirak etməkdən və ölkəmizi təmsil etməkdən çox qürur duydum.






## İmtahan stresi: Necə tanımaq və idarə etmək olar? Zəhraxanım Qasımova, 12i sinif şagirdi

İmtahan dövrü, xüsusilə, daha yüksək akademik səviyyələrə keçid zamanı tələbələr üçün ən stresli vaxtlardan biri olur. Stresin əlamətlərini tanımaq və onu idarə etməyi öyrənmək bu prosesi daha asan və idarəolunan edə bilər.

**Stresin əlamətlərini tanımaq**

İmtahan stresinin ən çox yayılmış əlamətlərindən biri daimi narahatlıq hissidir. Bir neçə fənn üzrə hazırlaşmaq və son tarixlərə yetişmək gərginliyi tələbələr üçün yorucu ola bilər. Bu hiss bəzən o qədər ağır olur ki, vəziyyəti idarə etmək çətinləşir. Digər bir əlamət yuxu problemləridir. Tələbələr gec saatlara qədər dərs oxumağa özlərini məcbur edirlər. Bu da yuxu pozğunluğuna səbəb olur və nəticədə keyfiyyət və məhsuldarlıq azalır. Bundan əlavə imtahanlar haqqında həddindən artıq düşünmək baş ağrısı və yorğunluq kimi fiziki əlamətlərə gətirib çıxara bilər ki, bu da hazırlıq prosesini çətinləşdirir.

**Stresi idarə etməyin yolları**

Stres əlamətlərini müəyyən etdikdən sonra onları idarə etməyin yollarını tapmaq vacibdir. Kömək üçün müraciət etmək böyük bir fərq yarada bilər. Məsləhətçilər, tələbələrə rahatlama texnikaları və diqqətlilik (mindfulness) meditasiya üsulları öyrədərək imtahanlara daha sakit yanaşmağa kömək edə bilərlər. Özünə qayğı isə stresin idarə edilməsində əsas rol oynayır. Kifayət qədər yuxu almaq və fiziki aktivliklə məşğul olmaq əhval-ruhiyyəni xeyli yaxşılaşdıra bilər. Gündə 7-8 saat yuxu almağa çalışın və yatmazdan əvvəl ən azı bir saat ekranlardan uzaq olun.

Balanslı bir dərs proqramı hazırlamaq da iş yükünü yüngülləşdirir və məhsuldarlığı artırır. Məşhur **Pomodoro Texnikası** bu məsələdə çox kömək edir. Bu texnika 25 dəqiqəlik fokuslanmış

dərs sessiyalarının ardından 5 dəqiqəlik fasilələrdən ibarətdir. Dörd belə sessiyadan sonra 15-30 dəqiqəlik daha uzun bir fasilə tövsiyə edilir.

Başqa bir təsirli üsul isə fizik Riçard Feynmanın adını daşıyan **Feynman Texnikasıdır**. Bu metod öyrəndiyiniz mövzunu sanki heç tanış olmayan birinə sadə və aydın şəkildə izah etmək üzərində qurulub. Mövzunu bu formada izah etmək həm biliklərinizi möhkəmləndirir, həm də mövzunu daha yaxşı anlamağa kömək edir.

**Nəticə**

İmtahan stresi akademik həyatın təbii və qaçılmaz bir hissəsidir. Lakin stresin əlamətlərini tanıyıb onu idarə etmək üçün effektiv strategiyalar tətbiq edərək həm məhsuldar hazırlaşmaq, həm də zehni sağlamlığınızı qorumaq mümkündür.




*2 - https://bharatividyapeethonline.com/what-is-the-pomodoro-technique/*

## Kitab oxumaq, Aylin Mirzəxan, 9i1 sinif şagirdi

Sonuncu oxuduğunuz kitab hansıdır? Əksər tələbələr müəllimlərin onları oxumağa yönləndirdiyi məktəb dərsliklərinin adını çəkəcək. Mən isə sizi öz əyləncəniz üçün kitab oxumağa təşviq etmək istəyirəm!

Tamamilə yeni bir dünyanı, baş qəhrəmanın baxış bucağını və bir çox başqa macəraları təsəvvür edin. Bütün bunlara bədii ədəbiyyatda rast gələ bilərsiniz! Bədii ədəbiyyat təxəyyül məhsulu olan hadisələr silsiləsidir. Dünyada təxminən 80% insan bədii ədəbiyyatı qeyri-bədii ədəbiyyatdan üstün tutur. Mən özüm də bu cür ədəbiyyatı sevirəm, buna görə də, sizə bədii kitabları mütləq oxumağı tövsiyə edirəm. Oxuya biləcəyiniz bir çox janr var, ən populyarları isə fantastika, elmi fantastika, qorxu, triller və romantikadır.

Ancaq əgər bu sizin maraq dairənizdə deyilsə, narahat olmayın! Gəlin sizi qeyri-bədii ədəbiyyatla tanış edim. Bir çox insanlar gerçək, faktiki, həqiqi hadisələr haqqında oxuyurlar. Bioqrafiya, tarixi, kriminal və psixologiya kimi janrlar buna misaldır. Bu növ kitablar həm əyləncəli, həm də maarifləndiricidir! Zövq aldığınız mövzular haqqında biliklərinizi genişləndirin. İstər yemək bişirməyi, istər jurnalistikanı, istərsə də təbiəti və ya tarixi sevin, öz zövqünüzə uyğun kitab tapmaq mümkündür!

İstəyə bağlı:

(Telefonunuzun qarşısında oturmaqla kifayətlənməyin, oxumaq təkcə təhsillə bağlı deyil! Əksər filmlər kitablar əsasında çəkilir və əksəriyyəti əsərin orijinal əhəmiyyətini tam əks etdirmir! Oxumaqla sevdiyiniz filmin ekranda göstərilməyən hər kiçik, lakin vacib detalını biləcəksiniz! Kitablar, həm də çox vaxt filmlərdən daha çox duyğu oyadır, bu da mənim kitabları filmlərdən üstün tutmağımın əsas səbəblərindən biridir.)

İndi soruşa bilərsiniz ki, "Kitabı haradan əldə edə bilərəm?" və cavab, əlbəttə ki, kitabxanadadır! Məktəbimizdə çox sayda kitab var. Boş vaxtınızda, məsələn, nahar zamanı, üçüncü mərtəbədəki müəllimlər otağının yanına gedin və orada məktəb kitabxanasını görəcəksiniz. Əgər kitabxananı harada tapacağınızı bilmirsinizsə, istənilən müəllimdən soruşa bilərsiniz! Kitabxanaya daxil olduqdan sonra müxtəlif kitablarla tanış ola biləcəksiniz. Həmçinin, qeyd etmək istərdim ki, bu il çox sayda yeni kitablarımız da olacaq!

Seçdiyiniz kitabı götürmək üçün girişdəki qeydiyyat masasına yaxınlaşın. Kitabları geri qaytarmaq üçün müəyyən bir vaxt limiti qoyulmur, ona görə də heç tələsmədən, arxayın bir şəkildə kitabınızı oxuyaraq istirahət edin! Və inanın mənə, yaxşı bir kitabı əlinizdən yerə qoymaq demək olar ki, mümkünsüzdür!





## “Canavarlar və günah hissi barədə” (hekayə), Miras Bekzatılı, 10i sinif şagirdi

“Ata, gözlərinin altı niyə bu qədər qaradır?”

“Ata, saqqalın niyə bu qədər uzundur?”

Ömərə uşaqlarının sonsuz suallarını cavablandırmaq üçün aman belə verilmirdi. Hər yeri sevinc, gülüş və yeni hazırlanmış yeməyin qoxusu bürümüşdü. Uşaqlar dayanmaq bilmədən ona çoxlu suallar verirdilər, amma birdən ətrafa sükut çökdü və uşaqların üzlərindəki sevinc dolu ifadənin yerini qaşqabaqlı və kinli baxışlar aldı.

“Ata, həbsxanadan niyə qaçdın?” – soruşdu həbsxana mühafizəçisi...

Çaşqınlıq və qorxu içində olan Ömər dərindən nəfəs almağa çalışsa da, boşuna idi, sadəcə bir neçə dəfə az-az öskürə bildi. Yuxuda olduğunu düşündü. Artıq bu həftə beşinci dəfə idi ki, bu hal yaşanırdı.

Hələ də ürkək bir halda olan Ömər nəfəsi kəsilərək ətrafına baxdı, lakin hər yer qaranlıq idi. Gözləri qaranlığa öyrəşib bəbəkləri genişləndikcə gözlərinin önünə qaranlıq bir meşə gəlməyə və yavaş-yavaş baş verənləri xatırlamağa başladı.

Uzun, nazik ağaclar sanki səssiz hakimlər kimi Ömərin üzərinə boylanır, budaqları solğun ay işığında bükülürdü. Meşədən xəfif səslər gəlir- budaqlar tərpənir, yarpaqlar xışıldayır və uzaqdan vəhşi təbiətin səsləri eşidilirdi. O, harada olduğunu və hara getməli olduğunu bilmirdi, amma ələ keçirilmə qorxusu meşənin bilinməyən təhlükələrindən daha güclü idi.

Nəm torpağın üstündə irəliləyən Ömərin getdikcə ürəyi daha çox döyünürdü. Hava ağır və soyuq idi, odun və duman qoxusu isə ətrafı bürümüşdü. Ömər alnındakı təri silərək yuxunun təsirindən qurtulmağa çalışırdı. Vicdan əzabı ona hörümçək toru kimi yapışmışdı.

Qəfildən havanı yararaq gələn bir şeyin hırıltı səsini eşitdi. Ömər dondu. Bədəni hərəkətsiz qaldı, yavaş-yavaş başını səsə tərəf çevirdi. Oradan, uzaqdan parıldayan bir cüt göz ona baxırdı. Çəlimsiz və ac bir canavar yavaş-yavaş ona doğru gəlirdi. Sarı gözlərini onun gözlərinə zilləmişdi, Ömərin isə ürəyi az qalsın yerindən çıxacaqdı.

Təlaş onu bürüdü.

"Ondan qaçaraq qurtula bilmərəm. Yox, bu ərazidə mümkün deyil."

Canavar daha da yaxınlaşaraq iti dişlərini göstərirdi. Ömər ətrafına göz gəzdirdi, özünü müdafiə etmək üçün bir şey, hər hansı bir şey axtarırdı. Nəhayət, iri, itiuclu bir budaq tapdı və onu iki əli ilə möhkəm tutmağa başladı.

Canavar onun üzərinə atıldı. Ömər budağı var gücü ilə canavarın çənəsinə vurdu. Ağrıdan inləyən canavar yenə də geri çəkilmədi. Canavar yenidən hücuma keçmək üçün dövrə vurarkən Öməri çarəsizlik duyğusu bürüyürdü, onun ulaması meşəni və Ömərin qəlbini titrədərək ətrafa yayıldı. Bu Ömər üçün elə bir an idi ki, ya həyatı bahasına döyüşəcəkdi, ya da ölümü ilə barışacaqdı.

Lakin canavar yenidən hücuma keçməyə hazırlaşdığı an meşədən güclü bir fit səsi gəldi. Canavar dayandı, qulaqlarını iki Beefeater (London Qalasının mühafizəçiləri) kimi səsə şəklədi, sonra isə qaranlığa qaçdı. Ömər orada nəfəsi kəsilmiş və çaşqın bir halda, içində dərin bir narahatlıqla donub qaldı.

Fit səsinin ardından ayaq səsləri və parlayan bir işığın yaxınlaşdığını hiss etdi.

Bəzi səslər artıq daha yaxından eşidilirdi. Onlardan biri isə tanış bir səs idi:

“Ata, həbsxanadan niyə qaçdın?”

Onun kim olduğunu anlamayana qədər Ömərin içi rahat olmamışdı. Yuxularına girən səs indi sanki bir laylaya bənzəyirdi. Ya canavarın caynaqlarından, ya da vicdan əzabından qurtulduğu üçün ürəyi rahatlayan Ömər cənnət misallı fənərləri ilə yolu işıqlandıran mühafizəçilərə gülümsəyərək yaxınlaşdı.



*3 - [https://www.turningart.com/art/wolves-in-the-forest-by-daniel-eskridge](https://www.turningart.com/art/wolves-in-the-forest-by-daniel-eskridge)*




*4 - Çəkdikləri zəhmət və fədakarlıqları üçün redaktorlarımız Xədicə Cəfərovaya (Kembric təkmil proqramları və ingilis dili üzrə koordinator), Nelson Urreqoya (məktəbin direktoru), Fidan Bəylərovaya (kontent dizayner), redaksiya heyətinə (bölmə rəhbərlərimiz) və bülletenə öz yazıları, tərcümə və ya korrektə işləri ilə töhfə vermiş hər bir kəsə öz minnətdarlığımızı bildiririk. Bundan əlavə, icraçı direktorumuz Tural Abbasova göstərdiyi etimad və əvəzsiz dəstəyə görə təşəkkür edirik.*

